EVDƏ QAL,
SAĞLAM QAL!

**Vasili Nebenzya: "Azərbaycan Prezidentinin təşəbbüsü zəruri sayda BMT üzvləri tərəfindən dəstəklənib"**



Bax 2

**YAP İcra Katibiyində "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" adlı kitabın videokonfrans formatında təqdimatı keçirilib**



Bax 3



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 116 (6081) 11 iyul 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

## "Ermənistanın üzərində mövcud olan çətir artıq deşilib"



Bax 2

*İlham Əliyev: "Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik"*

## Əli Əhmədov: "Tarixin saxtalaşdırılması ermənilərin işğalçı siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidir"



*"Prezdent İlham Əliyevin uğurla həyata keçirdiyi hücum diplomatiyasının ən vacib məqamlarından biri tarixin ermənilər tərəfindən saxtalaşdırılmasının ifşa edilməsindən ibarətdir. Biz dəfərlərlə beynəlxalq tədbirlərdə Prezidentimiz tərəfindən ermənilərin açıq şəkildə ifşa olunmasının şahidi olmuşuq...*

Bax 3

## Hikmət Hacıyev: "Azərbaycan Prezidentinin təşəbbüsü qlobal həmrəyliyə öz töhfəsini verəcək"

Bax 4



Hesab edirik ki, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının koronavirusla bağlı xüsusi sessiyasının çağırılması təşəbbüsü dünya ölkələrinin səylərinin səfərbər edilməsinə və qlobal...

## Xarici İşlər Nazirliyində həbslər davam edir

Məlumat verildiyi kimi, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) vəzifəli şəxsləri-nin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla...



Bax 4

## "Ermənistan layiq olduğu cavabı hər zaman alıb və bundan sonra da alacaq"

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli telekanallara müsahibəsində nasist ideologiyasının hökm sürdüyü Ermənistanın işğalçılıq siyasətini, Azərbaycanın beynəlxalq səviyyədə...*



Bax 7

## Ronaldo: "Bu, karyeramdakı ən vacib titul idi"

*"Yuventus"un portuqaliyalı ulduz futbolçusu Kriştiano Ronaldo Portuqaliya millisi ilə 4 il əvvəl Avropa çempionatının qalibi olmalarını xatırladıb. Qol.az xəbər verir ki, o, bununla bağlı "İnstaqram" səhifəsində...*



Bax 16

**Baş Prokurorluq KİV-ə xəbərdarlıq edir**



Bax 12

**Ermənistanda SOS və Paşinyan hakimiyyətinin qorxusu**



Bax 13

**Sərdar Cəlaloğludanəli Kərimliyə "pula satılan"**



Bax 14



# “Ermənistanın üzərində mövcud olan çətir artıq deşilib”

*İlham Əliyev: “Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik”*

***Azərbaycanın məqsədyönlü fəaliyyəti ona gətirib çıxarıb ki, Ermənistanın üzərində mövcud olan çətir artıq deşilib. Biz onların əsl mahiyyətini üzə çıxarırıq, onların faşist mahiyyətini ifşa edirik.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Prezident İlham Əliyev Azərbaycan Televiziyasına, İctimai Televiziyaya və “Xəzər” Televiziyasına müsahibəsində söyləyib. Prezident vurğulayıb ki, faşist Njdeyə abidə ucaldan və bu abidəni müdafiə edən faşistdir. Bunu biz deyirik və artıq dünya miqyasında bu fakt haqqında kifayət qədər məlumat var. Mən bu məsələni qaldırmayana qədər heç kim bu haqda danışmırdı. Mən bu məsələni qaldırdım və buna geniş beynəlxalq dəstək təmin edildi. İndi artıq hər kəs bilir ki, Njde faşist olubdur. Bu faşist onların qəhrəmanlıq simvoludur. Onların işğalçılıq siyasəti ifşa edilib. Artıq son vaxtlar bütün aparıcı beynəlxalq təşkilatların sənədlərində Azərbaycanın ərazi bütövlüyü birmənalı şəkildə dəstəklənir və işğal haqqında kifayət qədər dolğun məlumat var. Bir də ki, indiki Ermənistan rəhbərliyi əvvəlki hakimiyyətin bütün çirkin əməllərini üzə çıxarır. Artıq onların dediyi kimi, Ermənistana 1998-ci ildən 2018-ci ilə qədər quldurlar rəhbərlik ediblər. Onlar özləri bu cinayətkarları, rüşvətxorları ifşa ediblər.

Erməni lobbisi Ermənistanı bütün təşkilatlarda müdafiə edir. Mən bunu şəxsən Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin başçısı kimi görmüşəm. Yəni, Ermənistan tamamilə tənqiddən kənarda idi. O vaxt ermənipərəst deputatlar və əslən Avropa ölkələrindən olan varlı ermənilər bütün imkanlardan, öz maliyyə imkanlarından istifadə edib Ermənistanı bütün tənqidlərdən qoruyurdular.

“Ermənistanda insan haqlarının və demokratiyanın pozulması bu günün işi deyil. Ermənistanda heç vaxt demokratiya olmayıb. Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar. Ancaq ermənilərə himayədarlıq edənlər, ilk növbədə, erməni lobbisi, onun pulları, ondan sonra Ermənistan hökumətinin Avropada çirkin lobbiçilik fəaliyyəti onları həmişə bu tənqiddən qoruyurdu. Əslində, bu, lobbiçilik fəaliyyəti deyil, bu, korrupsiya fəaliyyətidir. Mən hesab edirəm ki, bu fəaliyyət Avropada geniş araşdırılmalıdır. Bizdə kifayət qədər siqnallar var ki, bəzi siyasi xadimlər, deputatlar, bəzi Avropa ölkələrinin hökumət üzvləri Ermənistana xüsusi münasibət bəsləyirlər. Elə adamlar var ki, Dağlıq Qarabağa yüzlərlə səfər edib. Bunun arxasında nələr dayanır, hamımız yaxşı başa düşürük. Ona görə Avropanın hüquq-mühafizə orqanları bu məsələni, Ermənistan hökumətinin Avropada korrupsiyanın yayılmasına verdiyi dırnaqarası töhfəni, əlbəttə ki, Ermənistanın riyakar siyasətini araşdırsınlar. Çünki o, hər bir güc mərkəzinə o güc mərkəzinin eşitmək istədiyini deyir yalandan. O, bir neçə stulda oturmaq istəyir. Bu günə qədər buna müvəffəq olub. O, saxta tarixi, uydurulmuş, yüz il bundan əvvəl dırnaqarası hadisələri - soyqırımı istismar etmək istəyir. Özündən qurban, yazıq bir xalq düzəltmək istəyir. Halbuki hər kəs yaxşı bilir ki, ermənilər bizə qarşı soyqırımı törətmişlər. Budur, əsas amillər”, -deyə dövlətimizin başçısı vurğulayıb.

## Rəsmi xronika

Prezident İlham Əliyev “Polis haqqında”, “Avtomobil yolları haqqında”, “Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında”, “Dövlət qulluğu haqqında”, “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında”, “Psixiatriya yardımı haqqında”, “Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında”, “Narkoloji xidmət və nəzarət haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Dövlət rüsumu haqqında”, “İcra haqqında”, “Gənclər siyasəti haqqında”, “Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında” və “Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 110-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 19 iyul tarixli 540 nömrəli, “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2001-ci il 3 sentyabr tarixli 574 nömrəli və “Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2004-cü il 19 iyul tarixli 88 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev “Uşaq hüquqları haqqında”, “Yol hərəkəti haqqında”, “Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında”, “Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında”, “Torpaq bazarı haqqında”, “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında”, “Kiçik sahibkarlığa dövlət köməyi haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında”, “İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 109-VIQD nömrəli Qanununun tətbiqi və “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 avqust tarixli 188 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Vasili Nebenzya: “Azərbaycan Prezidentinin təşəbbüsü zəruri sayda BMT üzvləri tərəfindən dəstəklənib”



***BMT Baş Assambleyasının koronavirusa həsr edilmiş xüsusi sessiyasında müzakirələr yaxın vaxtda başlanacaq. Bu xüsusi sessiyanın keçirilməsi təşəbbüsü ilə Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib.***

AZƏRTAC xəbər verir ki, Rusiyanın BMT-dəki daimi nümayəndəsi Vasili Nebenzya bu sözləri TASS Agentliyinin Baş direktorunun birinci müavini Mixail Qusmana müsahibəsində söyləyib.

V.Nebenzya bir məqama diqqəti cəlb edib ki, pandemiya hamını qəfildən yaxalayıb. O deyib: biz buna hazır deyildik. Birtəhər uyğunlaşmışıq, lakin iqtisadi, siyasi, sosial, tibbi və yəqin ki, psixiatrik nəticələrin hamısını bilmirik. Əgər yaxın gələcəkdə normal həyat ritminə qayıdacağımızı bilsəydik, sual olmazdı - Baş Assambleyanın zalında toplaşıb belə bir sessiya keçirərdik, lakin əgər belə olmasa, biz prosesin təmizliyini hansı prosedurlar vasitəsilə təmin etmək barədə düşünməliyik”. Daimi nümayəndənin sözlərinə görə, bu məsələ yaxın vaxtlarda müzakirə ediləcək.

V.Nebenzya xatırladıb ki, Azərbaycan Prezidentinin təşəbbüsü bu tədbirin təşkil edilməsi üçün zəruri sayda BMT üzvləri tərəfindən dəstəklənib. Lakin bu ideyanın həyata keçirilməsi məhz pandemiya səbəbindən hələlik çətindir. Siyasətçi deyib: “Məsələ modallıqlarla bağlıdır. BMT Baş Assambleyasının videoformatda xüsusi sessiyalarının keçirilməsi sahəsində təcrübəmiz yoxdur. İndi Baş Assambleyanın iclasları keçirilmir. Keçirilən iclaslar BMT-nin bu əsas orqanının rəsmi tədbirləri deyil, ona görə də bu məsələ müzakirə tələb edir.

Vasili Nebenzyanın fikrincə, bu tədbirin təşkili üçün hər cür imkan var. O deyib: “Əgər Baş Assambleyanın xüsusi sessiyası əvəzinə yüksək səviyyəli iclas keçirilməsindən söhbət getsə, belə bir format var. Onun üçün xüsusi prosedur tələb edilmir, belə iclası istəsəniz lap yaxın vaxtda keçirə bilərik. Baş Assambleyanın xüsusi sessiyası isə, əlbəttə, daha sanballı və siyasi əhəmiyyətli tədbirdir və biz həyatın bizə yaradacağı imkanlar və formatlar barədə düşünəcək, baxacaq və ən başlıcası, buna oriyentasiya edəcəyik”.

Xatırladaq ki, Azərbaycan Prezidenti İlham Əliyev Qoşulmama Hərəkatının Təmas Qrupunun Zirvə görüşündə pandemiyaya qarşı mübarizənin müzakirə edilməsi məqsədilə BMT-nin Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsi barədə təkliflə çıxış edib.

# YAP İcra Katibiyində "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" adlı kitabın videokonfrans formatında təqdimatı keçirilib

***İyulun 10-da Yeni Azərbaycan Partiyasının İcra Katibiyində tədqiqatçı alim, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" adlı kitabının videokonfrans formatında təqdimatı keçirilib.***





Təqdimat mərasimində çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bildirib ki, Prezdent İlham Əliyevin uğurla həyata keçirdiyi hücum diplomatiyasının ən vacib məqamlarından biri tarixin ermənilər tərəfindən saxtalaşdırılmasının ifşa edilməsindən ibarətdir. Onun sözlərinə görə, biz dəfərlərlə beynəlxalq tədbirlərdə Prezidentimiz tərəfindən ermənilərin açıq şəkildə ifşa olunmasının şahidi olmuşuq. Dövlət başçısının bu istiqamətdə həyata keçirdiyi hücum diplomatiyası Azərbaycanın və Ermənistanın həqiqi tarixinin beynəlxalq auditoriya tərəfindən mənimsənilməsi, dərk edilməsi, onların təsəvvüründə bu bölgənin həqiqi tarixi haqqında mənzərənin formalaşdırılması kimi vacib məqsədə xidmət göstərməkdədir.

Əli Əhmədov deyib ki, saxtakarlıq erməni millətinin ayrılmaz xislətinə, xüsusiyyətinə çevrilib: "Saxtakarlıq tarixən ermənilərin mənimsədiyi məşğuliyyətlərdən biridir. Ermənilər bunu vicdan əzabı çəkmədən ediblər və bu gün də etməkdədirlər. Tarixə münasibətdə də belədir. Özlərinin maraqları naminə vicdan əzabı çəkmədən, tarixi və tarixi hadisələri saxtalaşdırırlar. Tarixin saxtalaşdırılması ermənilərin işğalçı siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidir. Onlar işğal etdikləri torpaqların tarixini dəyişmək üçün də tarixi təhrif edir, guya özlərinə məxsus olması üçün yanlış təsəvvür yaratmağa çalışırlar. Tariximizlə yanaşı mədəniyyətimizə də ermənilər tərəfindən təcavüz edilib və bu gün də edilməkdədir. Bu baxımdan, təqdimatına toplaşdığımız kitab bir tərəfdən Prezident İlham Əliyevin Azərbaycan tarixinin dərindən öyrənilməsi ilə əlaqədar səsləndirdiyi tövsiyələrə cavabdırsa, digər tərəfdən tariximizin ermənilər tərəfindən təhrif edilməsinin miqyası ilə əlaqədar təsəvvürlərimizin daha da aydınlaşmasına köməklik göstərir. Bu kitabda soyqırıma məruz qalan 1000-ə yaxın toponimlərimiz əksini tapır. Bu toponimlər dəyişdirilərkən özündən əvvəl mövcud olmuş, azacıq da olsa tarixi kökə məxsus olmuş toponimlə əvəz olunmayıb. Yeni adların heç birinin tarixlə əlaqəsi yoxudr. Bu sübut edir ki, ermənilər azərbaycanlıların əraziləri əllərinə keçirdikdən sonra real tarixi bütünlə yox etmək kimi çirkin yol seçiblər. Kitab bizim tariximizin çox vacib hissəsinin hər birimiz, xüsusilə gənclərimiz tərəfindən yaxşı mənimsənilməsi üçün gözəl vasitədir".

Kitabın tərtibçisi, Milli Məclisin deputatı, tədqiqatçı-alim Əziz Ələkbərli çıxış edərək bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tarixi faktlara, sənədlərə istinadən beynəlxalq tribunalardan səsləndirdiyi Azərbaycan həqiqətləri ermənilərin əsrlər boyu dünyaya yaydıqları tarixi yalanları hər gün bir az daha artıq ifşa etməkdədir. Bu həqiqətlər sırasında son iki əsrdə Cənubi Qafqazda yeridilən erməniləşdirmə siyasəti nəticəsində bölgəyə və bölgə xalqlarına gətirilən çoxlu bəlalar, münaqişə, müharibə, deportasiya və soyqırımları xüsusi yer tutur.

Onun sözlərinə görə, 1918-ci ildə Azərbaycan torpaqları hesabına Ararat Respublikası adı ilə tarixdə ilk dövlətlərini yaratmaq fürsəti əldə edən ermənilər dərhal öz əsl simalarını ortaya qoydular və onlara bu fürsəti verən region xalqlarına, ilk növbədə, ərazinin yerli sakinləri olan azərbaycanlılara qarşı kütləvi soyqırımı həyata keçirməyə, dinc əhalini qəddarlıqla və kütləvi şəkildə məhv etməyə başladılar. Sonra tarixi mənbələr saxtalaşdırıldı, bu ərazilərdə nə varsa hamısı mənimsənildi, abidələrimiz, toponimlərimiz erməniləşdirildi. Bu il iyunun 3-də Azərbaycan Prezidenti İlham Əliyev Tərtər Rayon Olimpiya İdman Kompleksinin açılışındakı çıxışında alimlərimizin diqqətini bir daha bu məsələlərə cəlb etdi ki, bu tarix ciddi şəkildə araşdırılsın, elmi əsərlər ortaya qoyulsun. "Yeni Azərbaycan Partiyasının layihəsi olaraq nəşr olunmuş "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı da cənab Prezidentin bu çağırışına bir cavabdır. Kitabda Azərbaycanın tarixi torpaqları olan Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində ermənilər tərəfindən adı dəyişdirilmiş 953 toponimin - oykonim, oronim və hidronimin siyahısı verilib. Bu toponimlər Ermənistan SSR-in soydaşlarımızın sonuncu deportasiyasına qədərki ərazi inzibati bölgüsü - rayonları üzrə qruplaşdırılıb, Qafqaz Hərbi Dairəsinin 1903-cü il hərbi-topoqrafik xəritəsindən hər rayona uyğun görüntülər verilib. Kitaba daxil edilmiş toponimlər hər bir toponimin "köhnə adı", "yeni adı" və "dəyişdirilmə tarixi" (bu dəyişdirilmə ilə bağlı Ermənistan SSR Ali Soveti Fərmanının tarixi) xanaları üzrə qruplaşdırılıb. Bu, özü də toponimlərimizin soyqırımının Ermənistanda dövlət səviyyəsində həyata keçirilməsinin əyani sübutudur.

Kitabda Qərbi Azərbaycan (indiki Ermənistan) ərazisində Azərbaycan toponimlərinin ermənilər tərəfindən dəyişdirilmə prinsiplərinə də xüsusi diqqət yetirilib.

AMEA-nın Naxçıvan bölməsinin rəhbəri İsmayıl Hacıyev çıxışında bu kitabın erməni saxtakarlığının ifşa edilməsində vacib elmi sənəd olduğunu bildirib. Onun fikrincə, kitabın xüsusi əhəmiyyəti ondadır ki, burada təqdim olunmuş sənədlər çar Rusiyasının hazırladığı xəritələrə əsaslanır. İ.Hacıyev erməni saxtakarlığı ilə bağlı elmi araşdırmaların daha da gücləndirilməsinin zəruri olduğunu qeyd edib.

Təqdimat mərasimində çıxış edən Milli Məclisin komitə sədri, YAP Siyasi Şurasının üzvü Musa Quliyev tədqiqatçı alim Əziz Ələkbərlinin bu istiqamətdə sanballı əsərlər yazdığını bildirib. Onun fikrincə, Azərbaycan Prezidentinin çağırışı əsasında Yeni Azərbaycan Partiyasının layihəsi olaraq nəşr olunmuş "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" kitabı da bu baxımdan mühüm elmi əsərdir. M.Quliyev qeyd edib ki, 1828-ci ildə imzalanmış Türkmənçay müqaviləsi Azərbaycanı iki yerə parçalamaqla bitmədi, əslində yeni faciələrimizin də başlanğıcı oldu. Belə ki, bu müqavilənin əsasında tarixi torpaqlarımıza köçürülən ermənilər azərbaycanlılara qarşı soyqırımı törədib, torpaqlarımızı işğal ediblər. O, Qərbi Azərbaycanda adları dəyişidirilən toponimlər barədə faktlarla fikirlərini əsaslandırıb.

M.Quliyev təklif edib ki, təqdimatı keçirilən kitabın elektron versiyası hazırlansın, rus və ingilis dillərinə tərcümə olunaraq internetdə yerləşdirilsin. Belə olarsa, dünya ictimaiyyəti də ermənilərin törətdiyi cinayətlərlə daha yaxından tanış ola biləcəklər.

Tədbirdə çıxış edən Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli nəşr olunmuş kitabın elmi nöqteyi-nəzərdən əhəmiyyətini vurğulayıb. Ə.Hüseynli sovetlər hakimiyyəti dövründə ermənilərin toponimlərin adını mərhələlərlə dəyişdirildiyini deyib və bunu faktlarla diqqətə çatdırıb. Onun sözlərinə görə, Ümummilli Liderimiz Heydər Əliyev Azərbaycanda hakimiyyətə gəldikdən sonra ermənilər Ermənistan SSR-də toponimlərimizin dəyişdirilməsinə cəsarət etməyiblər. Bunun nümunəsi kimi 1969-1979-cu illərdə həmin ərazilərdə heç bir yer adı dəyişdirilməyib. Birinci vitse-spiker qeyd edib ki, azərbaycanlıların indiki Ermənistan ərazisindən son deportasiyası illərində azərbaycanlılar bu deportasiyaya qarşı ciddi müqavimət göstəriblər. Bu məsələ də alimlərimiz tərəfindən araşdırılıb elmi-tarixi əsərlər ortaya qoyulmalıdır. Çünki bu deportasiya faktı da cinayətdir, beynəlxalq hüquqa zidd addımdır. Bu məsələlərlə bağlı faktların geniş dünya ictimaiyyətinə çatdırılması ermənilərə ciddi zərbə ola bilər.

Tədbirdə həmçinin YAP İdarə Heyətinin üzvü, akademik Abel Məhərrəmov, akademik Fikrət Əliyev və professor Şahlar Əsgərov çıxış edərək təqdimatı keçirilən kitabın əhəmiyyətini vurğulayıblar. Çıxışlarda ermənilərin soyadlarımızı da mənimsəməyə çalışdıqları bildirilib, eləcə də İrəvan şəhərinin tarixi maketinin hazırlanması, erməni saxtakarlığı ilə bağlı kitabların xarici dillərə tərcümə edilməsi təklif edilib.

Tədbirə yekun vuran YAP Sədrinin müavini Əli Əhmədov çıxış edən natiqlərin dəyərli təkliflər irəli sürdüyünü deyib. O təqdimatı keçirilən kitabın elektron versiyasının hazırlanmasının, rus və ingilis dillərinə tərcümə edilməsinin nəzərdə tutulduğunu bildirib. YAP Sədrinin müavini həmçinin qeyd edib ki, 1948-1953-cü illərdə sovet hökuməti tərəfindən azərbaycanlıların deportasiyaya məruz qalması və azərbaycanlıların hüquqlarının bərpa edilməsi məsələsi gündəmə gətirilməli, beynəlxalq müstəviyə çıxarılmalıdır. Çünki həmin dövrdə deportasiyaya məruz qalmış digər xalqlar sonradan öz hüquqlarını bərpa ediblər. Hüquqları bərpa olunmayan yeganə xalq isə azərbaycanlılardır.

Sonda Əli Əhmədov Prezident İlham Əliyevin çağırışlarına cavab olaraq ermənilərin tarixi saxtalaşdırmaq cəhdləri, onların işğalçılıq siyasəti ilə əlaqədar bundan sonra da elmi-tədqiqat işlərinin aparılacağını diqqətə çatdırıb.



## Əli Əhmədov: "Tarixin saxtalaşdırılması ermənilərin işğalçı siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidir"

***"Prezdent İlham Əliyevin uğurla həyata keçirdiyi hücum diplomatiyasının ən vacib məqamlarından biri tarixin ermənilər tərəfindən saxtalaşdırılmasının ifşa edilməsindən ibarətdir. Biz dəfərlərlə beynəlxalq tədbirlərdə Prezidentimiz tərəfindən ermənilərin açıq şəkildə ifşa olunmasının şahidi olmuşuq.***

Dövlət başçısının bu istiqamətdə həyata keçirdiyi hücum diplomatiyası Azərbaycanın və Ermənistanın həqiqi tarixinin beynəlxalq auditoriya tərəfindən mənimsənilməsi, dərk edilməsi, onların təsəvvüründə bu bölgənin həqiqi tarixi haqqında mənzərənin formalaşdırılması kimi vacib məqsədə xidmət göstərməkdədir". Bu fikirləri Baş nazirin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün Yeni Azərbaycan Partiyasının İcra Katibiyində tədqiqatçı alim, Milli Məclisin deputatı Əziz Ələkbərlinin "Qərbi Azərbaycanda soyqırımına məruz qalmış toponimlərimiz" adlı kitabının videokonfrans formatında təqdimatı zamanı deyib.

Əli Əhmədov bildirib ki, saxtakarlıq erməni millətinin ayrılmaz xislətinə, xüsusiyyətinə çevrilib. "Saxtakarlıq tarixən ermənilərin mənimsədiyi məşğuliyyətlərdən biridir. Ermənilər bunu vicdan əzabı çəkmədən ediblər və bu gün də etməkdədirlər. Tarixə münasibətdə də belədir. Özlərinin maraqları naminə vicdan əzabı çəkmədən, tarixi və tarixi hadisələri saxtalaşdırırlar. Tarixin saxtalaşdırılması ermənilərin işğalçı siyasətinin tərkib hissəsi kimi dəyərləndirilməlidir. Onlar işğal etdikləri torpaqların tarixini dəyişmək üçün də tarixi təhrif edir, guya özlərinə məxsus olması üçün yanlış təsəvvür yaratmağa çalışırlar. Tariximizlə yanaşı mədəniyyətimizə də ermənilər tərəfindən təcavüz edilib və bu gün də edilməkdədir. Bu baxımdan, təqdimatına toplaşdığımız kitab bir tərəfdən Prezident İlham Əliyevin Azərbaycan tarixinin dərindən öyrənilməsi ilə əlaqədar səsləndirdiyi tövsiyələrə cavabdırsa, digər tərəfdən tariximizin ermənilər tərəfindən təhrif edilməsinin miqyası ilə əlaqədar təsəvvürlərimizin daha da aydınlaşmasına köməklik göstərir"-deyə, Əli Əhmədov vurğulayıb.

## Hikmət Hacıyev: “Azərbaycan Prezidentinin təşəbbüsü qlobal həmrəyliyə öz töhfəsini verəcək”




Hesab edirik ki, Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının koronavirusla bağlı xüsusi sessiyasının çağırılması təşəbbüsü dünya ölkələrinin səylərinin səfərbər edilməsinə və qlobal həmrəyliyə öz töhfəsini verəcək.

AZƏRTAC xəbər verir ki, bu fikri Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib. Azərbaycanın xarici ölkələrlə əməkdaşlığından danışan Prezidentin köməkçisi deyib: “Məhz bu tərəfdaşlığın nəticəsidir ki, fikir və təcrübə mübadilələrinin aparılması üçün bir sıra ölkələrdən, o cümlədən Türkiyədən, Rusiyadan Azərbaycana müxtəlif həkim briqadaları gəliblər. Həkimlər və tibbi heyət, eyni zamanda, epidemioloji siyasətin həyata keçirilməsinə məsul mütəxəssislər də ölkəmizə təşrif buyurublar və onlar azərbaycanlı həmkarları və Operativ Qərargahla fikir mübadiləsi aparırlar. Qeyd edilməlidir ki, Azərbaycan tərəfinin bu günə qədər həyata keçirdiyi bütün tədbirlər xaricdən olan mütəxəssislər tərəfindən çox yüksək qiymətləndirilir”.

Hikmət Hacıyev bildirib ki, karantin rejiminin tətbiq olunması ilə əlaqədar dövlətimizin bütün resursları səfərbər olunub. Tibbi heyət lazımi istiqamətdə fəaliyyətini davam etdirir. Hüquq-mühafizə orqanları, dövlət qulluqçuları aidiyyəti sahələr üzrə koronavirusla mübarizə istiqamətində fəaliyyətlərini davam etdirirlər. Bütün bunların əsas məqsədi dövlətimizin başçısının tapşırıqlarına müvafiq olaraq vətəndaşlarımızın sağlamlıqlarının və təhlükəsizliyinin qorunmasıdır. “Ümumiyyətlə dünyadakı epidemioloji vəziyyət heç də ürəkaçan deyil. Artıq dünya üzrə 12 milyondan çox insanın virusa yoluxması qeydə alınıb, ölüm halları da artmaqda davam edir. Hazırda ən çox yayılma regionu Latın Amerikası müəyyən edilib. Bununla bərabər, Azərbaycanın yerləşdiyi regiona yaxın olan Yaxın Şərq regionunda da artma tendensiyaları özünü büruzə verməkdədir. Azərbaycan koronavirusla mübarizədə qlobal müstəvidə də səylərini davam etdirir. Bu gün Prezident İlham Əliyevin təşəbbüsü ilə çağırılan BMT Baş Assambleyasının koronavirusla mübarizə ilə bağlı xüsusi sessiyası öz işinə başlayır”, - deyə Prezidentin köməkçisi vurğulayıb.

## Xarici İşlər Nazirliyində həbslər davam edir



Məlumat verildiyi kimi, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) vəzifəli şəxslərinin öz səlahiyyətlərindən qəsdən qulluq mənafeyinə zidd olaraq istifadə edib dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vuran çoxsaylı əməllərə yol verməleri ilə bağlı istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, aparılan cinayət işi üzrə davam edən araşdırmalar zamanı XİN-in Konsulluq idarəsinin rəisi Faiq Bağırov tərəfindən Konsulluq məsələləri və sənədlərin təsdiqi şöbəsinin üçüncü katibi İlqar Əliyev, Konsulluq hüquq şöbəsinin müdiri Nurupaşa Abdullayev və tabeçiliyində işləmiş digər şəxslər vasitəsilə viza proseduru üzrə çoxsaylı xarici ölkə vətəndaşlarının adlarına Azərbaycan Respublikasına dəvət edən tərəfin vəsatətlərinin qısa müddətdə təsdiqi, habelə Azərbaycan Respublikası və xarici ölkə vətəndaşlarının təqdim etdikləri rəsmi sənədlərə şəhadətnamənin (apostilin) verilməsi, sənədlərin konsul leqallaşdırılmasının, eləcə də onun prosedurlarının təzləşdirilməsinin təmin edilməsi müqabilində əvvəlcədən müəyyən edilmiş konkret məbləğlərdə pul vəsaitlərinin müntəzəm surətdə rüşvət olaraq alınmasına əsaslı şübhələr müəyyən olunub.

Cinayət işi üzrə Faiq Bağırov və digərləri qabaqcadan əlbir olan bir qrup şəxs halında təkrar rüşvət alma cinayət əməllərinə görə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək, barələrində məhkəmənin qərarları ilə həbs qətimkan tədbiri seçilib.

## TƏBİB-in şöbə müdiri: Rayonlara gediş-gəliş icazəsinin verilməsi soydaşlarımızı risk altına qoya bilər




Son vaxtlar yay mövsümü ilə əlaqədar rayonlara getməyə icazə verilməsi ilə əlaqədar çoxlu müraciətlər olur. AZƏRTAC xəbər verir ki, bu barədə TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib.

O qeyd edib ki, tarixboyu həmişə epidemiyalarla mübarizədə birinci silah karantin olub. Hansı xəstəliyin müalicəsi üçün peyvənd yoxdursa, ona qarşı yeganə yol karantin rejiminin tətbiq edilməsi olur. Xəstəliyin inkubasiya dövrü 14 gün olduğuna görə hər hansı şəxs Bakını tərk edib rayona və rayondan Bakıya üz tutarkən özü ilə virusu daşıya və onu ətrafdakılara yoluxdura bilər. Hazırda bu məsələlər üzərində müzakirələr gedir və epidemioloji vəziyyətin dəyişməsindən asılı olaraq belə qərarlar gələcəkdə verilə bilər. Bu gün belə bir qərar yoluxmaların az olduğu rayonları və oradakı soydaşlarımızı risk altına qoya bilər”.

## Vüsal Qasımlı: Dövlət 1,5 milyard manat kredit portfelinə subsidiya və zəmanət verəcək



İndi bank sektorunun qarşısında əsas çağırışlardan biri öz vəsaitlərini daha çox yerləşdirməkdir, başqa sözlə, kredit portfelini böyütməkdir. SİA-nın məlumatına görə, bu sözləri Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin rəhbəri Vüsal Qasımlı deyib. Onun sözlərinə görə, bankların müştərilərə verdikləri kreditlər pandemiya başlayandan - bu ilin fevralından aybaay azalır: “Bu ilin mart-may aylarında kredit portfeli 6,1 faiz azalaraq 14,4 milyard manata enmişdir. Burada bankların lisenziyasının alınması da təsir göstərmişdir. Hansı ki, bankların nağd vəsaitləri, Mərkəzi Bankda və başqa banklarda müxbir hesablardakı vəsaitləri, həmçinin qiymətli kağızlarının həcmi böyüyür. Pandemiyanın yaratdığı risklər və karantin rejimi bankların risk antipatiyasını artırır. Bu mənada dövlətin müdaxiləsinə ehtiyac yaranıb”.

V.Qasımlı bildirib ki, manatın sabitliyi, inflyasiyanın təkrəqəmli həddə nəzarətdə olması, əmanətlərin tam sığortalanması, problemli kreditlərin həlli və bəzi bankların sektordan uzaqlaşdırılması bu sahənin sağlamlığını qorumaq üçün baza tədbirləridir: “Sadalananlarla kifayətlənməyən dövlət bankların kredit portfelinin genişlənməsini dəstəkləyir.”

Onun sözlərinə görə, pandemiyadan zərər çəkən sahibkarlara bank kreditləri üzrə dövlət zəmanətinin verilməsi və kredit faizlərinin subsidiyalaşdırılması problemli kreditlərin yaranmasının qarşısını alacaq: “Belə ki, sahibkarlar tərəfindən alınacaq yeni 500 milyon manatlıq kreditin 60 faizi - 300 milyon manatlıq hissəsi dövlət zəmanəti ilə təmin ediləcək. Yeni veriləcək kreditlərə görə zəmanət - Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu hesabına olacaq. Subsidiya yeni kreditlərə illik faiz dərəcəsinin 50 faizi həddində veriləcək.” “Eyni zamanda 2020-ci il 10 mart tarixinə zərər çəkmiş sahələrdə sahibkarların kreditlərinə 10 faiz subsidiya təqdim olunacaq. Faiz dərəcəsi 10-dan aşağı olarsa, subsidiya kreditin faiz dərəcəsi həcmində verilir. Azərbaycanda orta kredit faizi və inflyasiyanı nəzərə alanda, bu yolla sahibkarlar üçün maliyyə vəsaitinin ucuzlaşması təmin olunur” - deyə o, davam edib. V.Qasımlının sözlərinə görə, mövcud 1 milyard manatlıq kredit portfeli üzrə faiz sybsidiyaları, habelə yeni kreditlərə 500 milyon manatlıq portfel üzrə dövlət zəmanətinin verilməsi və faizlərin subsilayalaşdırılması, bütövlükdə 1,5 milyard manat kredit portfelinə dəstəkdir: “Bu isə ölkə üzrə hazırkı kredit portfelinin 10 fazindən daha çoxdur. Bundan başqa pandemiyaya qarşı mübarizə tədbirləri çərçivəsində Mərkəzi Bankın maliyyə bazarlarına dəstək istiqamətində qəbul etdiyi proqram üzrə - requlyativ tətil, istehlakçı hüquqlarının qorunması, rəqəmsallaşmaya keçidin sürətləndirilməsi, maliyyə inklüzivliyinin artırılması, onlayn xidmət kanallarının təşviqi, maliyyə intizamının qorunması, maliyyə dayanıqlılığına dəstək istiqamətində icrası nəzərdə tutulan tədbirlər əks olunub. Maliyyə bazarları üzrə icrası nəzərdə tutulan tədbirlər-bank sektoru, sığorta bazarları və kapital bazarlarını əhatə edir.” V.Qasımlı qeyd edib ki, Sahibkarlığın İnkişafı Fondu, İnnovasiyalar Agentliyi, Aqrar Kredit və İnkişaf Agentliyi, Gənclər Fondu, Aqrolizinq, İpoteka və Kredit Zəmanət Fondu, “Maarifçi” Tələbə Kredit Fondu, Azərbaycan İnvestisiya Şirkəti və investisya təşviqi sənədi kimi mexanizmlərlə dövlət ucuz maliyyə vəsaitlərinə və aktivlərə çıxışı asanlaşdırır: “Bununla yanaşı, kreditlərin bazar faizi və iqtisadiyyatın məhsuldarlıq səviyyəsi arasında lazımi nisbətin qurulması üçün kompleks fəaliyyətlər davam etdirilir. Ən əsası odur ki, bank kreditləri iqtisadi artımı dəstəkləsin.”

## Azərbaycanda daha 526 nəfər koronavirusa yoluxub




Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 526 yoluxma faktı qeydə alınıb, 502 nəfər müalicə olunaraq sağalıb və evə buraxılıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 8 nəfər vəfat edib. Hazırkı dövrədək ölkəmizdə 22 min 990 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 14 min 93 nəfər müalicə olunaraq sağalıb, 292 nəfər vəfat edib. Aktiv xəstə sayı 8605 nəfərdir. Ötən müddət ərzində 552 min 311 test aparılıb. Bugünkü test sayı isə 7576-dır.

## Vaaqn Çaxalyan: “Diksrinimasiyaya son qoyulsun”

“Biz buraya Ermənistan prezidentinə məktub verməyə gətirmişik ki, Lansarote Konvensiyasının qəbuluna görə utansın”. SİA panorama.am-a istinadən xəbər verir ki, bunu ölkənin müxalifətyönlü “Kamk” (“İradə”) ictimai təşəbbüs təşkilatının rəhbəri Vaaqn Çaxalyan “Diskriminasiyaya yox” şüarı ilə Baqramyan prospektində keçirdiyi aksiyasında bildirib. Onun sözlərinə görə, hakimiyyət bu vasitə ilə məktəblərdən “Ermənistan kilsəsinin tarixi” dərsliyinin çıxarmağa çalışır və eyni zamanda “Erməni dili”, “Erməni xalqının tarixi” dərsliklərinin də təsirini azaltmağa cəhd göstərir. “Onlar hər vəchlə çalışırlar ki, etiraz edənlər mitinq keçirmək hüquqlarından da məhrum olunsunlar. Bu gün yalnız Paşinyanın dəstək göstərdiyi adamlara aksiyalar keçirmək imkanı yaradılıb . Biz Ermənistan respublikası hakimiyyətinin onlara sərf etməyən siyasi güclərə diskrinimasiya siyasəti yürütməsinə qarşı çıxış edirik”, Çaxalyan bildirib.

Qeyd edək ki, Vaaqn Çaxalyan öz fikrini tamamlaya bilməyib və polisər onu, həmçinin Sona Aqekyanı və daha bir neçə təşkilat üzvlərini saxlayaraq, ölkə prezidentinə məktub vermək cəhdlərinin qarşısını aşırı güc tətbiq etmək yolu ilə alıblar. Xatırladaq ki, adıçəkilən təşkilat Paşinyan rejiminin LGBT və cinsi azlıqlara “yaşıl işıq” yandırması marağında olduğunu iddia edir, eyni zamanda kilsəyə qarşı siyasət yürütdüyünü iddia edir.

**Rövşən**

## Qarabağa qanunsuz səfər etmiş türkiyəli jurnalistə şok İttiham



İstanbul Cinayətlər Məhkəməsinin hakimi Hakkı Yalçınkaya köşə yazısında onu təhqir edən jurnalist Nagəhan Alçı barəsində cinayət işinin açılmasını tələb edib. SİA-nın məlumatına görə, hakim jurnalistdən İstanbul Baş Prokurorluğuna şikayət ərizəsi verib.

Yalçınkaya ərzəsində təhqir ittihamı irəli sürdüyü Nagəhan Alçının 3 ay 15 gündən, 2 il 4 aya qədər azadlıqdan məhrum edilməsini istəyib. Hakim Yalçınkaya şikayət ərizəsində Alçının yazısında erməni əsilli jurnalist Qrant Dinkin ölümünə səbəb olduğu iddialarını irəli sürdüyünü bildirib: “Qrant Dinki ölümə aparan və ya ölümünə səbəb olan qərarı mən verməmişəm. Qrant Dinkin öldürüldüyü tarixdə Malatya məhkəməsinin hakimi idim”. Əlavə edək ki, Nagəhan Alçı bir neçə il əvvəl Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ bölgəsinə qanunsuz səfəri ilə gündəmə gəlmişdi. Türk jurnalistin bu addımı Azərbaycanda hiddətlə qarşılanmışdı.

# YAP Səbail rayon təşkilatı onlayn formatda geniş iclas keçirib



YAP Səbail rayon təşkilatında onlayn formatda Rayon Şurasının və ərazi ilk partiya təşkilat sədrlərinin növbəti geniş tərkibli iclası keçirildi. SİA-nın verdiyi məlumata görə, iclasa sədrlik edən YAP Səbail rayon təşkilatının sədri professor Şəmsəddin Hacıyev koronavirus (COVID-19) epidemiyası ilə mübarizə çərçivəsində ölkəmizdə həyata keçirilən ardıcıl, sistemli və qabaqlayıcı tədbirlər, ölkə başçısının qəbul etdiyi qərarlar və hökumət tərəfindən atılan addımlar haqqında danışaraq bildirdi ki, bütün bəşəriyyət üçün qlobal sınağa çevrilmiş koronavirus pandemiyası, bu pandemiya ilə əlaqədar respublika ərazisində tətbiq olunan xüsusi karantin rejimi bir daha göstərdi ki, Azərbaycan Prezidenti üçün əhalinin sağlamlığı prioritetdir. Yaranmış iqtisadi təzyiqə baxmayaraq hökumət tərəfindən sosial dövlət konsepsiyasına uyğun olaraq sosial proqramlar davam etdirilir və özünütəcrid şəraitində vətəndaşlara maksimum sosial-iqtisadi dəstək göstərilir, səhiyyə sisteminin virusla mübarizə üçün hazır vəziyyətə gətirilməsi məqsədilə təxirəsalınmaz tədbirlər vaxtında icra olunur. Vurğulandı ki, yoluxma dinamikasının mənfiyə doğru gedişində bütün çətinliklərə baxmayaraq ölkəmizdə dərhal preventiv və sərt karantin şərtləri tətbiq olunur və pandemiya ilə mübarizə dövründə Azərbaycan vətəndaşının öz dövlətinə və prezidentinə etimadı gündən-günə yüksəlir.



Ş.Hacıyev diqqətə çatdırdı ki, pandemiya ilə mübarizənin 6 aylıq təcrübəsi göstərdi ki, bu ümumbəşəri bəla ilə mübarizə üçün ölkələr ayrı-ayrılıqda deyil, yalnız bütün səylərini birlikdə birləşdirərək uğur qazana bilərlər. Təəssüf ki, hətta inkişaf etmiş bəzi ölkələrdə virusdan ölüm hallarının sayının artmasına baxmayaraq iqtisadi tənəzzülün aradan qaldırılması prioritet vəzifə kimi irəli sürülür. Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev isə bu məsələdə tamamilə fərqli mövqe nümayiş etdirdi, insani dəyərlərə, həmrəyliyə, əməkdaşlığa həmişə olduğu kimi bu dövrdə də sadiq qaldı və pandemiyaya qarşı ən mütərəqqi mübarizə modelini nümayiş etdirdi. Təsadüfi deyil ki, möhtərəm Prezidentimiz pandemiyanın dünyada sürətlə vüsət aldığı ilk gündən etibarən real addımlar atdı, konstruktiv təkliflərlə dünya ölkələrini bu pandemiyaya qarşı mübarizədə birliyə, həmrəyliyə dəvət etdi. Buna misal olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının sədri və Qoşulmama Hərəkatının sədri statusunda qlobal həmrəyliyin nümunəsi kimi pandemiya ilə mübarizə məqsədilə BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün dünyanın 130-dan çox dövlət və hökumət başçıları tərəfindən dəstəklənməsi hadisəsini Azərbaycan üçün diplomatik tarixi uğur kimi yüksək qiymətləndirən Ş.Hacıyev bildirdi ki, beynəlxalq ictimaiyyətin cənab İlham Əliyevin şəxsində Azərbaycana bu etimadı bir daha sübut edir ki, yeni dövrün yeni lideri İlham Əliyev Cənubi Qafqazın lider ölkəsinin rəhbəri kimi bu gün beynəlxalq təşkilatlarda qlobal liderlik, qlobal həmrəylik və dünyanı narahat edən qlobal problemə bəşəri baxış nümunəsi təqdim edir. Sədr bütün ərazi ilk partiya təşkilatlarının sədrlərini və üzvlərini ölkə başçımızın bu təşəbbüsünü fəal sürətdə sosial şəbəkələrdə dəstəkləməyə, təbliğ etməyə və real işlərdə rəhbər tutmağa çağırdı. Qeyd olundu ki, BMT Baş Assambleyasının bu xüsusi sessiyasından nəinki biz, bütünlüklə dünya ictimaiyyətinin gözləntiləri yüksəkdir. Əminik ki, bu mötəbər yığıncaqda konkret təkliflər üzrə məqsədəmüvafiq effektiv addımlar atılacaq. Nəzərə alsaq ki, virusa qarşı peyvəndin hazırlanmasında artıq xeyli yol qət edilib, düşünürük ki, bu peyvəndin inkişaf və gəlir səviyyəsindən asılı olmayaraq hər bir ölkə və hər bir vətəndaş üçün əlçatan olması bu iclasda müzakirə olunan prioritet məsələ olmalıdır.

Koronavirus (COVID-19) epidemiyası ilə mübarizənin yeni mərhələsində hər bir vətəndaşın və ictimai qurumun, o cümlədən YAP Səbail rayon təşkilatının və onun bütün strukturlarının, bütün YAP üzvlərinin qarşısında duran sosial vəzifələrə bir daha diqqət çəkən Sədr xüsusi qeyd etdi ki, biz mövcud qlobal pandemiya şəraitində fərdi şəkildə hər bir vətəndaşdan tələb olunan maska, sosial məsafə və şəxsi gigiyena qaydalarına əməl etməklə həm özümüzü, həm yaxınlarımızı, həm də bütünlükdə xalqımızı, dövlətimizi qoruyuruq.

İclasda 13.06.2020-ci il tarixində YAP-ın Sədr müavini - İcra Katibi Əli Əhmədovun sədrliyi ilə keçirilmiş müşavirədə rayon partiya təşkilatları qarşısında qoyulan vəzifələr, o cümlədən partiya üzvlərinin uçot qeydiyyatı məsələləri haqqında iclas iştirakçılarına ətraflı məlumat təqdim olundu və bütün ərazi ilk partiya təşkilatları sədrlərinə bu vəzifələrdən irəli gələn konkret tapşırıqlar verildi. Sonra məsələ ilə bağlı çıxışlar dinlənildi və qarşıda duran vəzifələrlə bağlı təkliflər səsləndirildi.

**RƏFİQƏ HÜSEYNOVA**

# Ali məktəblərə qəbul olunmaq üçün 17 minə yaxın subbakalavr ərizəsini təsdiqlədib



Ali təhsil müəssisələrinə subbakalavrların ərizə qəbulu davam edir. Dövlət İmtahan Mərkəzindən (DİM) AZƏRTAC-a bildirilib ki, ərizələrin qəbulu iyulun 10-dək internet vasitəsilə aparılır. Subbakalavrlar ekabinet.dim.gov.az səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra istifadəçi adı və parolundan istifadə etməklə DİM-in internet səhifəsinə daxil olub, "Subbakalavrın elektron ərizəsi" formasını təsdiq edirlər. Bu gün saat 17:25-ə olan məlumata görə, 16 min 885 subbakalavr elektron ərizəsini təsdiqlədib.

Xatırladaq ki, subbakalavra aid təhsil məlumatları "Tələbə-Məzun" dövlət elektron məlumat sistemindən avtomatik əldə olunur. Bu məlumatları tam olmayan subbakalavrlar elektron ərizəsini təsdiq etmək üçün ötən ildən fərqli olaraq məzunu olduqları orta ixtisas təhsili müəssisələrinə getmirlər. Subbakalavr elektron ərizəsinə daxil olub "yadda saxla" düyməsini basdıqdan sonra bitirdiyi orta ixtisas təhsili müəssisəsinə avtomatik elektron sorğu ünvanlanacaq. Tələb olunan məlumatlar orta ixtisas təhsili müəssisəsinin məsul şəxsləri tərəfindən sistemə yerləşdirildikdən sonra subbakalavra SMS xəbərdarlıq göndəriləcək. Təhsil müəssisələri sistemə daxil edilmiş bu məlumatların həqiqiliyinə görə məsuliyyət daşıyır. Qeyd olunan tarixlərdə ərizəsini təsdiq etməyən subbakalavrlar müsabiqəyə buraxılmayacaq.

Subbakalavr "Şəxsi kabinet"ində qeyd olunan mobil telefon nömrəsi özünəməxsus deyilsə və ya nömrə dəyişilibsə, "Əlaqə məlumatları" bölməsində müvafiq düzəliş etməlidir. SMS xəbərdarlıq aldıqdan sonra elektron ərizəsinə daxil olub onu təsdiq etməlidir.

# "Modern Diplomacy" portalında "Ermənistan pandemiya ilə bağlı iqtisadi problemləri həll edə bilmir" adlı məqalə dərc olunub




Beynəlxalq Münasibətlərin eksperti Orxan Bağırovun "Modern Diplomacy" portalında "Ermənistan pandemiya ilə bağlı iqtisadi problemləri həll edə bilmir" adlı məqaləsi dərc olunub. Məqalədə qeyd edilir ki, pandemiya ilə əlaqədar Ermənistanda fövqəladə vəziyyət elan edildikdən sonra iqtisadi aktivlik kəskin azaldığından iqtisadi inkişaf proqnozları pisləşməyə başlayıb. Avropa Yenidənqurma və İnkişaf Bankının proqnozlarına əsasən, ilin sonuna Ermənistan iqtisadiyyatı 3,5 faiz həcmində kiçiləcək, lakin Ermənistan hökuməti mənfi 2 faiz həcmində daha pozitiv proqnozla çıxış edir.

Bildirilir ki, iqtisadiyyatın kiçilməsinin yaradacağı əsas iqtisadi problemlərdən biri vergi daxilolmalarının azalmasıdır. Əgər ÜDM 2 faiz azalarsa, bu, vergi daxilolmalarının 10 faizə qədər azalmasına səbəb olacaq. Belə olan halda büdcə gəlirlərinin azalmasına baxmayaraq, Ermənistan hökuməti iqtisadi və sosial problemlərin qarşısını almaq məqsədilə büdcə xərclərini azaltmaq istəmir. Bu addım bəzi problemlərin qarşısını alsa da, büdcə kəsirinin əsaslı formada artmasına səbəb olmaqla uzunmüddətli iqtisadi problemlər yaradacaq. Vergi daxilolmalarının 10 faiz azalması büdcə kəsirinin 2 dəfəyə qədər artaraq 676,4 milyon ABŞ dollarına və ya ÜDM-in 5 faizi səviyyəsinə çatmasına səbəb olacaq.

Müəllif qeyd edir ki, həm büdcə kəsirinin, həm də dəstək proqramlarının maliyyələşdirilməsi üçün Ermənistan hökuməti 546 milyon dollar həcmində xarici borc cəlb etməyə məcburdur. Bu isə Ermənistanın onsuz da yüksək olan xarici borcunun (2019-cu ildə ÜDM-in 40 faizi) daha da artmasına yol açacaq.

Bildirilir ki, Ermənistan, eyni zamanda, enerji sektorunda da problemlərlə qarşılaşmaqdadır. Qiymətlə bağlı yeni dəyişikliklərə əsasən qazın ölkədə hər min kubmetr üçün orta qiyməti 266, 7 dollar səviyyəsində müəyyən edildi. Kənd təsərrüfatı şirkətləri üçün qazın hər min kubmetr üçün qiyməti 212 dollardan 224 dollara, ayda 10 min kubmetrdən çox qaz istifadə edən istifadəçilər üçün isə 242 dollardan 255,9 dollara qaldırıldı. Yeni qiymətlər iyulun 19-da qüvvəyə minəcək. Lakin bu, işsizlik probleminin yaranmasına səbəb olacaq. Belə ki, "Qazprom Ermənistan" qəbul edilmiş qiymətlər əsasında fəaliyyət göstərmək üçün 1500-ə qədər işçisini ixtisar etməli və illik 6 faiz daha az gəlir ilə fəaliyyət göstərməlidir".

Müəllif bildirir ki, Ermənistanın iqtisadi problemləri öz maliyyə vəsaitləri hesabına həll edə bilməməsi və özünün enerji idxalını şaxələndirə bilməməsi böyük iqtisadi problemlərin yaranmasına yol açacaq: "Xarici maliyyə dəstəyindən asılı olan və müstəqil iqtisadi və enerji siyasəti həyata keçirə bilməyən dövlətlər istər pandemiya dövründə, istərsə də post-pandemiya dövründə ciddi iqtisadi problemlərlə qarşılaşacaq. Onu da nəzərə alsaq ki, 2018-ci ildə Ermənistanda hökumət dəyişikliyinin baş verməsində sosial və iqtisadi problemlər böyük rol oynamışdı, o zaman yaranacaq iqtisadi problemlərin siyasi nəticələrinin də olacağını deyə bilərik".

# Ərdoğan Ayasofyanın ibadətə açılması barədə qərarı imzalayıb

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Ayasofyanın ibadətə açılması barədə qərarı imzalayıb. AZƏRTAC Anadolu Agentliyinə istinadla xəbər verir ki, Rəcəb Tayyib Ərdoğan Ayasofyanın Diyanət İşləri İdarəsinə təhvil verilərək ibadətə açılması ilə bağlı qərarı "xeyirli olsun" mesajı ilə özünün Tvitter səhifəsində paylaşıb. Qərar "Rəsmi qəzet"də dərc olunub. Prezident bu qərarı Türkiyənin Apelyasiya məhkəməsi tərəfindən Ayasofyanın məsciddən muzeyə çevrilməsinə dair Nazirlər Kabinetinin 1934-cü il 24 noyabr tarixli qərarı ləğv olunduqdan sonra imzalayıb.



# Pandemiya ilə mübarizəyə dair maarifləndirmə tədbirlərinə özəl sektor da qoşulub

Dövlət-özəl tərəfdaşlığı çərçivəsində daha bir maarifləndirici videoçarx hazırlanıb. Kiçik və Orta Biznesin İnkişafı Agentliyindən (KOBİA) AZƏRTAC-a bildirilib ki, videoçarx ölkə ərazisində koronavirus infeksiyasının yayılmasının qarşısının alınması, vətəndaşlar tərəfindən zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl olunması istiqamətində həyata keçirilən maarifləndirmə tədbirlərinə dəstək məqsədi daşıyır. KOBİA, "ZiraatBank Azərbaycan" və "Times consulting" şirkətinin birgə təşəbbüsü ilə hazırlanmış videoçarxda koronavirus infeksiyasının təhlükəsi, sosial davranış qaydalaraına riayət edilməsinin vacibliyi vətəndaşların diqqətinə bir daha çatdırılır. Videoçarxın əsas çağırışı "Biz birlikdə güclüyük" şüarıdır.

# Bolqarıstanın bir sıra KİV-lərində Azərbaycan Silahlı Qüvvələri Gününə həsr olunan məqalələr dərc edilib

***Bolqarıstanın bir sıra nüfuzlu KİV-lərində 26 iyun - Silahlı Qüvvələr Günü və Azərbaycan Ordusu haqqında məqalələr dərc olunub.***

AZƏRTAC xəbər verir ki, Azərbaycanın bu ölkədəki səfiri Nərgiz Qurbanovanın müəllifi olduğu məqalələr Bolqarıstan Respublikası Müdafiə Nazirliyinin İnformasiya Mərkəzinin internet səhifəsində "Azərbaycan Ordusu Cənubi Qafqazda ən güclüsüdür", "Bolqarıstan Ordusu" qəzetində "Bu gün Azərbaycanın Ordusu bayramını qeyd edir" və "Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclüsüdür", nüfuzlu "Fokus" xəbər agentliyinin internet səhifəsində "Azərbaycanın səfiri Nərgiz Qurbanova: Azərbaycanda müstəqil dövlət quruculuğunun ən vacib uğurlarından biri Silahlı Qüvvələrin yaradılmasıdır" sərlövhələri ilə dərc edilib. Bundan başqa, səfir Nərgiz Qurbanovanın "Focus" Xəbər Agentliyinin və "Focus" radiosunun rəsmi internet səhifəsində yazılı və audio formatlarda yayımlanan müsahibəsində də Azərbaycanda Ordusunun şərəfli tarixinə və hərbi potensialına xüsusi yer verilib.

Məqalələrdə Azərbaycanda müstəqil dövlət quruculuğunun ən mühüm nailiyyətlərindən biri olaraq Silahlı Qüvvələrin yaradılması göstərilir. Qeyd edilib ki, bu gün gücü və qüdrəti ilə seçilən, qarşıya qoyulan bütün vəzifələri layiqincə yerinə yetirmək imkanına malik olan Azərbaycan Respublikasının Silahlı Qüvvələri dövlət müstəqilliyinin bərpasından öncə və sonra çətin sınaqlardan keçib, sözün həqiqi mənasında mətinləşib. Yazılarda hərb tariximizin şanlı keçmişinə nəzər salınıb, görkəmli sərkərdələr və onların qəhrəmanlıqları qürur hissi ilə xatırlanıb. Bildirilib ki, milli ordumuzun yaradılması tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir. 1918-ci il 26 iyun tarixli fərmanla Azərbaycan Milli Ordusunun (Əlahiddə Azərbaycan Korpusu) yaradılmasına başlanılıb. Avqustun 1-də Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Nazirliyi təsis olunub. Milli ordunun yaradılmasında Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, İbrahim ağa Usubov, Kazım Qacar, Cavad bəy Şıxlinski, Həbib bəy Səlimov və başqa peşəkar hərbçilər müstəsna rol oynayıb, Cümhuriyyətin müdafiəsinin təşkilində, hərbi strukturların formalaşmasında misilsiz fədakarlıqlar göstəriblər. Həmçinin Böyük Vətən müharibəsi dövründə faşizmə qarşı döyüşlərdə azərbaycanlıların göstərdiyi qəhrəmanlıqlardan bəhs olunur.

Müəllif istər sovet hakimiyyəti illərində, istərsə də müstəqillik dövründə Azərbaycanda hərbi təhsilə xüsusi əhəmiyyətin verilməsində, soydaşlarımızın yeniyetmə yaşlarından hərb sənətini öyrənməyə başlamasında Azərbaycan xalqının ümummilli lider Heydər Əliyevin müstəsna xidmətini qeyd edir. Ümummilli liderin dövlət quruculuğu, o cümlədən hərbi quruculuq istiqamətində təxirəsalınmaz tədbirləri sadalanır. Bu gün Azərbaycan Ordusunda xidmət edən zabitlərin əksəriyyətinin məhz dahi siyasi xadimin qayğısı sayəsində Türkiyə, Rusiya, Ukrayna, Pakistan, Çin, İtaliya, Rumıniya və digər ölkələrin akademiyalarında təhsil aldıqları qeyd olunub. Sonra isə Ulu Öndərin 1998-ci il mayın 22-də imzaladığı Fərmanla Əlahiddə Azərbaycan Korpusunun yarandığı günün - iyunun 26-sının Azərbaycan Respublikasının Silahlı


armymedia.bg/archives/184681

В Т К Вестник БА Филмов архив Екип Реклама Документи Профил на купувача Търгове Контакт

МИНИСТЕРСТВО НА ОТБРАНАТА ИНФОРМАЦИОНЕН ЦЕНТЪР

Армия България Свят Спорт Предавания Филми Седмична програма Емисия новини Антикорупция Защита на личните данни

Азербайджанската армия е най-силната в Южен Кавказ

Наргиз Гурбанова

Посланик на Азербайджан в България

Едно от най-важните постижения, свързани с изграждането на независима държава в Азербайджан, е създаването на въоръжените сили. Създаването на нашата национална армия съвпада с периода на Азербайджанската демократична република (АДР). Ситуацията, възникнала по време на разпадането на царска Русия и геноцида над азербайджанците през март–април 1918 г., налага спешно изграждане на армия, което започва с издаването на Указ от 26 юни с. г. На 1 август е създадено Военното министерство на АДР. Талантливият генерал Самад бей Мехмандаров е назначен за министър на отбраната, а генерал-лейтенант Алиага Шихлински – за заместник-министър. Изключителна роля в създаването на националната армия изиграват още Хюсеин хан Нахчъвански, Ибрахим ага Усубов, Казъм Гаджар, Джавад бей Шихлински, Хабиб бей Салимов.

По време на съветската власт в Азербайджан на военното образование е обърнато особено внимание. През 1971 г. общонационалният лидер Гейдар Алиев успява да създаде специализирано военно училище „Джамшид Нахчъвански", както и да осигури приемането на повече азербайджански младежи в Бакинското висше общовойсково командно училище и Бакинското висше военноморско училище. Така са положени основите за подготовката на професионални офицери за нашата независима държава. След разпадането на СССР

БЪЛГАРСКА АРМИЯ

Брой 27 (2020)

МИНИСТЕРСТВО НА ОТБРАНАТА

БЪДИ ВОЙНИК

РАЗБЕРИ КАК

0700 20 407

ПРОУЧВАНЕ НА ТВ АУДИТОРИЯ НА ВТК И САЙТА WWW.ARMYMEDIA.BG

ВТК ВОЕНЕН ТЕЛЕВИЗИОНЕН КАНАЛ

Qüvvələri Günü elan olunduğu diqqətə çatdırılır.

Məqalələrdə qeyd olunub ki, Azərbaycan Ordusunun müasir standartlar əsasında yenilənməsi və təkmilləşdirilməsi Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında uğurla davam etdirilir. Hazırda, öz təşkilat strukturuna, təlim imkanlarına, hərbi təchizatına və s. xüsusiyyətlərinə görə yüksək standartlara cavab verən Azərbaycan Ordusu Cənubi Qafqazın ən qüdrətli ordusuna çevrilərək döyüş hazırlığına görə MDB məkanında ön sıralarda qərarlaşıb. Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi, hərbi təhsil, hərbi-siyasi və hərbi-texniki sahələrdə xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla ikitərəfli və çoxtərəfli formatda kompleks fəaliyyət həyata keçirir. Azərbaycan Ordusunun şəxsi heyəti regional və beynəlxalq səviyyədə keçirilən müxtəlif təyinatlı taktiki və kompüter dəstəkli hərbi təlimlərdə iştirak edir.

Məqalədə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin region və region xaricində təhlükəsizliyin təmin olunması, beynəlxalq strateji əhəmiyyətli layihələrin mühafizəsi və beynəlxalq təhlükəsizliyə töhfəsinə dair geniş məlumat verilir. Qeyd olunub ki, 1992-ci ilin martından etibarən müxtəlif proqramlar çərçivəsində NATO ilə əməkdaşlıq əlaqələrini inkişaf etdirən Azərbaycan 1999-cu ildən etibarən öz hərbi qüvvələri ilə sülhməramlı əməliyyatlara dəstək verir. 1999-cu ilin sentyabrından 2008-ci ilin mart ayınadək Azərbaycan Ordusunun sülhməramlı taqımı NATO-nun rəhbərliyi altında Kosovoda sülhyaratma və sülhü dəstəkləmə əməliyyatlarda iştirak edib. 2002-ci ildən Azərbaycan Ordusunun taqımı Əfqanıstanda Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələri (İSAF) tərkibində fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin sülhməramlı bölüyü 2003-2008-ci illərdə İraqda Beynəlxalq Koalisiya Qüvvələri tərkibində fəaliyyət göstərib. 2015-ci ilin yanvarından NATO-nun Əfqanıstanda keçirdiyi "Qətiyyətli Dəstək" qeyri-döyüş missiyasında Silahlı Qüvvələrin kontingenti rotasiya planına uyğun olaraq xidmət edir. Ümumiyyətlə, 1999-cu ildən müxtəlif regionlarda keçirilən sülhməramlı əməliyyatlarda Azərbaycan Ordusunun 3 mindən artıq hərbi qulluqçusu iştirak edib.

İkitərəfli hərbi əməkdaşlıq üzrə Azərbaycan Respublikası Silahlı Qüvvələri ilə xarici dövlətlərin silahlı qüvvə və hərbi sənaye kompleksləri arasında əməkdaşlığa toxunan müəllif Bolqarıstan da daxil olmaqla, Azərbaycan dünyanın 40-a yaxın ölkəsi ilə hərbi əməkdaşlıq həyata keçirdiyini qeyd edib. Bildirilib ki, 2017-ci ildə Bolqarıstanın G.S.Rakovski adına Hərbi Akademiyasının rəisi general-mayor Qrudi Angelovun və 2018-ci ildə Bolqarıstan Respublikası Baş Nazirinin müavini, Müdafiə naziri Krasimir Karakaçanovun Azərbaycana səfəri, eyni zamanda, 2019-cu ildə Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıqovun Bolqarıstana səfəri və baş tutmuş yüksək səviyyəli görüşlər qarşılıqlı hərbi əməkdaşlığımızın ən bariz nümunəsidir. Hərbi əməkdaşlığımızın hüquqi əsasını 2002-ci il sentyabrın 25-də Sofiyada imzalanmış "Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Bolqarıstan Respublikası Müdafiə Nazirliyi arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" təşkil edir. Bundan başqa, 2017-ci ildə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası ilə Bolqarıstanın G.S.Rakovski adına Hərbi Akademiyası arasında elmi tədqiqatlar, təcrübə mübadiləsi, müştərək tədbirlərin keçirilməsi, tədris və qarşılıqlı maraq doğuran digər məsələlərə dair əməkdaşlıq sənədi imzalanıb.

Səfir qeyd edir ki, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin potensialı və müdafiə qüdrətinin artması beynəlxalq reytinq agentliklərinin də diqqətindən yayınmayıb. ABŞ-ın müstəqil "Qlobal Firepower" təşkilatının 2020-ci il hesabatına görə 138 ordu arasında Azərbaycan Silahlı Qüvvələri 64-cü yerdə qərarlaşmış və regionun lideri olaraq seçilib. Məqalədə, həmçinin qeyd olunub ki, Ermənistanın işğalçılıq siyasəti Azərbaycanı daim güclü və istənilən hücuma çevik cavab verəcək ordu yaratmağa məcbur edir. Regionda sülhün tərəfdarı olan Azərbaycan heç vaxt beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalı ilə barışmayacaq. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyi və ərazi bütövlüyü əsasında mümkündür. BMT Nizamnaməsinin 7-ci fəslinin 51-ci maddəsinə əsasən hər bir dövlət özünün ərazi bütövlüyünü müdafiə etmək üçün hərbi yoldan istifadə edə bilər və Azərbaycan dövləti bu hüququ özündə saxlayır. Sonda xatırladılıb ki, cari il sentyabrın 8-10-da Azərbaycan 4-cü Beynəlxalq "ADEX" hərbi sərgisinə ev sahibliyi edəcək. "ADEX" sərgisi regionda müdafiə sənayesi və daxili təhlükəsizliyə həsr olunmuş ən nəhəng tədbirdir və iştirakçılara həm Azərbaycanın hərbi rəhbərliyi, həm də qlobal hərbi-müdafiə ictimaiyyəti ilə görüşlər keçirmək üçün unikal imkan yaradır. Məqalədə "ADEX" sərgisində iştiraka dəvət qeyd olunaraq qarşılıqlı faydalı hərbi əlaqələrin daha da gücləndirilməsinə çağırış edilir.

## Koronavirusla mübarizədə qabaqlayıcı tədbirlərin görülməsi ölkəmizdə vəziyyəti tam nəzarətdə saxlamağa imkan verir




Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iyulun 6-da Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışında iştirak etdilər. Prezident İlham Əliyev açılışdan sonra yerli televiziya kanallarına verdiyi geniş müsahibəsində çox mühüm məqamlara toxundu. Dövlətin başçısının üzərində dayandığı diqqətçəkən məsələlərdən biri də koronavirus pandemiyası ilə bağlı mövcud vəziyyət idi.

Bu fikri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Tamam Cəfərova deyib.

Deputat bildirib ki, Azərbaycan dövlətinin koronavirus pandemiyası ilə mübarizə istiqamətində atdığı çox mühüm addımlar sırasında modul tipli xəstəxanaların yaradılması böyük əhəmiyyət daşıyır. Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, ölkə ərazisində ümumilikdə 10 modul tipli xəstəxana kompleksinin quraşdırılması nəzərdə tutulur. Beş modul tipli xəstəxana artıq istifadəyə verilib. Bu xəstəxanalardan ikisi Bakıda, biri Sumqayıtda, biri Gəncədə, biri Abşeron rayonunda fəaliyyət göstərir. Ölkə rəhbərinin də qeyd etdiyi kimi, xəstəliyin dinamikası əlavə xəstəxanalara ehtiyac olacağını deməyə əsas verir və biz ən kritik vəziyyətə hazır olmalıyıq.

T.Cəfərova deyib: "Prezident İlham Əliyev koronavirusla mübarizə ilə əlaqədar ölkədə modul tipli xəstəxanaların açılmasına xüsusi diqqət yetirir. Hazırda ölkəmizin 45 xəstəxanasında koronavirus xəstələri müalicə alır, həmin tibb müəssisələrinin 36-sı dövlət başçısının müvafiq sərəncamları ilə inşa edilib. Məhz Azərbaycan Prezidentinin uzaqgörənliyi nəticəsində ilk günlərdən qabaqlayıcı tədbirlərin görülməsi, məqsədyönlü addımlar atılması bu gün ölkəmizdə vəziyyəti tam nəzarətdə saxlamağa imkan verib.

Dövlət başçısının da qeyd etdiyi kimi, yoluxmanın tempinin yüksək olmasına baxmayaraq, vəziyyət tam nəzarət altındadır. Həm də bu nəzarət təkcə mərkəzdə, iri şəhərlərdə deyil, bütün ölkə miqyasında uğurla həyat keçirilir. Təsadüfi deyil ki, koronavirusla mübarizəyə cəlb olunmuş 45 xəstəxananın əksəriyyəti bölgələrdə yerləşir".

Deputat diqqətə çatdırıb ki, pandemiyanın ilk aylarında respublikamızda cəmi 6 laboratoriya olduğu halda, indi onların sayı 29-a çatıb və daha 15 yeni laboratoriya sifariş edilib. Beləliklə, son nəticədə laboratoriyaların sayı 44-ə çatdırılacaq. Məhz bu tədbirlərin nəticəsidir ki, Azərbaycan adambaşına düşən testlərin sayına görə dünyada təqribən 40-cı yerdə qərarlaşıb. Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin yeni istifadəyə verilən modul tipli hospitalı xəstəliklə mübarizədə əlavə imkanlar yaradacaq. Ən önəmlisi odur ki, bu xəstəxana 800 çarpayılıqdır. Bu xəstəxanada bütün lazımi şərait yaradılıb. Palatalar, laboratoriya, diaqnostika mərkəzi, həkimlər üçün yaxşı şərait var. Bu ərazidə təqribən bir ay-ay yarım ərzində yeni xəstəxana inşa ediləcək. O da modul tipli xəstəxana olacaq. Orada çarpayıların sayı 1300-ə qədərdir. Yəni, təqribən iki ay ərzində 2 mindən çox xəstəni burada yerləşdirmək mümkün olacaq.

"Pandemiyanın ilk günlərindən qabaqlayıcı tədbirlərin görülməsi nəticəsində bu gün ölkəmizdə vəziyyət nəzarət altındadır. Məhdudlaş?dırıcı tədbirlərin go?ru?lməsi vətəndaşların sağlamlığının təmin edilməsinə yönəldilib. Dövlətimiz bütün mümkün tədbirlərdən istifadə edir ki, kritik vəziyyəti adlaya biləк. İnanırıq ki, bu çətinliyin də öhdəsindən birlikdə gələcəyik", - deyə Tamam Cəfərova fikrini yekunlaşdırıb.

## "İrates" qəzeti: "Ermənistanda qarşıdurma fonunda polis əməkdaşları əsəblərini cilovlaya bilmir"




İki il əvvəl "küçələrdə addımlayanlar" hakimiyyətə "Polis bizimdir" şüarı ilə gəlmişdi, lakin bir müddət sonra bəlli oldu ki, "bizim polis" vətəndaşların mənafeyinə məhəl qoymadan hakimiyyətin istənilən əmrinə tabe olmalıdır. SİA xəbər verir ki, bu barədə Ermənistana məxsus "İrates" qəzeti yazır. Qəzet yazır ki, bu gün əvvəllər olduğu kimi, vətəndaşlarla polis arasında münasibətlər gərginləşir və bir çox hüquq-mühafizə orqanlarının əməkdaşları bu gərginlik fonunda əsəblərini cilovlaya bilmir.

Nəşr qeyd edir ki, əldə etdiyi məlumata görə, müəyyən miqdarda cərimələrin ödənilməsi üçün sərt sərəncam verilib, buna görə adi polislər cəmiyyət tərəfindən tənqid olunur. "Bütün günah adi polisin üzərinə düşür, baxmayaraq ki, onlar yalnız ali rəhbərliyin əmrinə tabedir. Bu günlərdə bir çoxu sistemdəki problemlərdən, anlaşılmaz əmrlər səbəbiylə cəmiyyətin polisə olan mənfi münasibətindən şikayətlənir", deyə qəzet yazır.

# “Ermənistan layiq olduğu cavabı hər zaman alıb və bundan sonra da alacaq”

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli telekanallara müsahibəsində nasist ideologiyasının hökm sürdüyü Ermənistanın işğalçılıq siyasətini, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini zəbt edərək bir milyondan çox insanın fundamental hüquqlarını pozan bu ölkənin saxta demokratiyasını, hazırkı hakimiyyətin qurduğu diktatura rejimini növbəti dəfə konkret faktlarla ifşa edib.*



AZƏRTAC xəbər verir ki, bu fikri Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva KİV-ə açıqlamasında bildirib.

Leyla Abdullayeva deyib ki, Ermənistan XİN Azərbaycanı Ermənistanı “faydalı düşmən” obrazında təqdim etməkdə ittiham edir. Bununla bağlı, ilk növbədə, qeyd olunmalıdır ki, Ermənistan 30 ilə yaxındır Azərbaycanın ərazilərini hərbi işğal altında saxlaması və bütün dünyanın qınadığı təcavüzkar siyasəti ilə özünə düşmən obrazını çoxdan qazanıb. Bundan əlavə, Ermənistanın hazırkı rəhbərliyinin həm iflasa uğrayan daxili siyasəti, həm də hərbi işğalı davam etdirən xarici siyasəti onun elə öz xalqının bu günü və gələcəyinə qarşı düşmən mövqeyindən çıxış etdiyini aşkarcasına nümayiş etdirir.

Azərbaycan Respublikası Prezidentinin BMT Baş Assambleyasının qlobal pandemiya ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyasının çağırılması təşəbbüsünə qarşı çıxış etməklə Ermənistanın hazırkı rəhbərliyi əsl simasını nümayiş etdirdi. Bütün dünyanın maraqlarına xidmət edən bu təşəbbüsün məhz Azərbaycan tərəfindən irəli sürüldüyü üçün onun əleyhinə çıxan Ermənistan beləliklə də xalqların sülhə hazırlanması çağırışını ciddi şübhə altına qoyur.

Azərbaycanı düşmənçilik bəyanatlarında ittiham etmək cəhdlərinə gəldikdə isə, öz qanunsuz və təxribat xarakterli əməlləri ilə vəziyyətin daha da gərginləşməsinə xidmət edən təcavüzkar Ermənistan tərəfi layiq olduğu cavabı hər zaman Azərbaycanın ali rəhbərliyi timsalında alıb və bundan sonra da alacaq. Azərbaycan və Ermənistan xalqlarının maraqlarından danışan Ermənistan rəhbərliyi nəhayət anlamalıdır ki, işğalçı qüvvələrin yalnız BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsindən və ətraf rayonlarından çıxması və məcburi köçkünlərin öz evlərinə qayıtması, beləliklə də bölgədə davamlı sülh, təhlükəsizlik və rifahın təmin olunması hər iki xalqın marağındadır.

# Ermənistandan deportasiya edilən azərbaycanlıların hüquqlarının bərpası ilə bağlı Avropa Məhkəməsinə müraciət olunacaq

*“Azərbaycan Yeni Nəsil Hüquqşünaslar Assosiasiyası” İctimai Birliyi Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının yardımı ilə “1988-ci ildən etibarən Ermənistandan deportasiya olunmuş azərbaycanlıların pozulmuş əmlak hüquqlarının təmin olunması ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciətlərin təşkili” adlı layihənin icrasına başlayır.*

İctimai Birlikdən AZƏRTAC-a bildiriblər ki, layihənin məqsədi 1988-1989-cu illərdə vahid mərkəzdən idarə olunan erməni quldur dəstələrinin və rayon rəhbərlərinin nəzarəti və iştirakı ilə azərbaycanlıların dədə-baba yurdu olan Ermənistan ərazisindən deportasiyası üçün onların evlərinə basqın edərək əmlaklarının qanunsuz ələ keçirilməsi, pozulmuş əmlak hüquqlarının bərpası ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmələrinə şərait yaratmaqdır.

Aparılmış araşdırmaların, elmi-tədqiqat işlərinin, mövcud arxiv sənədlərinin əsasında müəyyənləşdirilib ki, azərbaycanlıların deportasiyası dövründə soydaşlarımızın kolxozlarda olan illik əməkhaqları ermənilər tərəfindən mənimsənilib. Həmçinin bir çoxları dövlət banklarında olan əmanətlərini götürə bilməyərək, məcburiyyətdən geniş həyətyanı torpaqlarını, mülklərini və evlərini tərk ediblər. Soydaşlarımızın fərdi təsərrüfatlarındakı əmlakları da bütünlüklə ermənilər tərəfindən əvəzi ödənilmədən mənimsənilib. Qaçqın soydaşlarımızın talanmış, qanunsuz olaraq ələ keçirilmiş əmlaklarının dəyəri təxminən 2,5 milyard ABŞ dolları təşkil edir.

1988-ci ildən Ermənistandan deportasiya edilən azərbaycanlıların pozulmuş əmlak hüquqlarının bərpasına nail olmaq, onlara vurulan maddi və mənəvi ziyanın ödənilməsi öhdəliyini Ermənistan dövlətinin üzərinə qoymaq üçün hazırlanmış material və sənədlər İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə göndəriləcək, bununla bağlı faktlar Avropa və dünya ictimaiyyətinin diqqətinə çatdırılacaq.

Avropa Şurasının üzvü olan Ermənistandan 1988-ci ildən deportasiya olunmuş azərbaycanlıların pozulmuş əmlak hüquqlarının təmin etməsi ilə bağlı İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciətlərin başlanması üçün artıq sənədlərin qəbuluna start verilib.

Nazirlər Kabineti yanında Operativ Qərargahın elan etdiyi xüsusi karantin rejiminə riayət edərək ilkin müraciətlər üçün (051) 589-10-13 telefon nömrəsi və yaxud e-mail ünvanı vasitəsilə onlayn növbə götürmək lazımdır. Təşkilat tərəfindən həmin növbəyə uyğun olaraq vaxt təyin ediləcək. Hüquqları pozulmuş soydaşlarımız ilə görüşdə Operativ Qərargahın tələb və tövsiyələri diqqətə alınaraq sosial məsafənin qorunması, maska taxılması, spirtdən istifadə və sair kimi qaydalara əməl olunmasına diqqət yetiriləcək. Toplanmış sənədlər İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin tələb etdiyi formada hazırlanır, dəymiş ziyan hesablanaraq təzminat tələb edilir.

Bunun üçün 1988-ci ildən Ermənistandan məcburən köçürülən soydaşlarımızın İctimai Birliyin ofisinə (Bakı şəhəri, İstiqlaliyyət pr-57, Bakı AZ1001, 012 497-56-65, 051 589-10-13, e-mail:office.aynha@gmail.com) gələrkən əllərində olan sənədləri də gətirmələri və bu il avqustun 20-dək müraciət etmələri xahiş olunur.

# Tacikistanın portalında Azərbaycanın diplomatiya tarixi ilə bağlı material verilib

Tacikistanın avesta.tj portalında Azərbaycanın diplomatiya tarixi ilə bağlı rus dilində material verilib. AZƏRTAC xəbər verir ki, məqalədə Qafqaz Albaniyası, Atabəylər, Şirvan-




şahlar, Qaraqoyunlular, Səfəvi dövlətlərinin diplomatiyasının Azərbaycan diplomatiya tarixinin şanlı səhifəsini təşkil etdiyi bildirilir.

Yazıda vurğulanır ki, Ağqoyunlu hökmdarı Uzun Həsən Şərqlə Qərb arasında körpü rolunu oynayıb. O dövrdə bütün Şərqdə yeganə diplomat qadın olan Sara Xatunun bu istiqamətdə əvəzsiz xidmətləri olub.

Materialda Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) diplomatiya siyasəti haqqında da söhbət açılır, bildirilir ki, yeni yaranan dövlətin dünya birliyi tərəfindən tanınması üçün diplomatlardan ibarət Azərbaycan nümayəndə heyəti Paris Sülh Konfransına gedir və Azərbaycan dövləti dünya birliyi tərəfindən müstəqil dövlət kimi tanınıb. Beləliklə Azərbaycan Qərbin etimadını qazanan müsəlman dövləti olur.

Materialda müstəqillik illərində böyük siyasi xadim Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi, qısa müddətdə bütün sahələrdə aparılan islahatlar haqqında ətraflı məlumat verilir.

Yazıda Azərbaycan Prezidenti İlham Əliyevin bütün sahələrdə apardığı islahatlar, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində görülən işlər, ölkənin neft strategiyası haqqında məlumat verilir, bildirilir ki, ölkəmiz hazırda 130 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik edir. Məqalədə Azərbaycan-Tacikistan əlaqələri, Tacikistan Prezidenti Emamali Rahmonun ölkəmizə rəsmi səfəri, Prezident İlham Əliyevlə görüşləri, imzalanan sənədlər haqqında da söhbət açılır.

# Nadir Zeynalov: “Koronavirusa qarşı dərmanların ev şəraitində istifadəsi tövsiyə olunmur”

Koronavirusa qarşı dərmanların ev şəraitində müalicə üçün istifadəsi tövsiyə olunmur. Çünki onlar kifayət qədər yan, toksik təsirlərə malik dərman maddələridir. Onlarla müalicə xəstəxana şəraitində aparılmalıdır.



AZƏRTAC xəbər verir ki, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında Səhiyyə Nazirliyi Aparatının rəhbəri Nadir Zeynalov deyib.

Bununla bağlı sualı cavablandıran aparat rəhbəri deyib: “Vitaminlər və mikroelementlərə gəlincə, düşünmürəm ki, apteklərdə bununla bağlı qıtlıq olsun. Yüngül əlamətləri olan və poliklinikalarda qeydiyyata alınmış xəstələrə immun sistemini gücləndirən dərmanların, vitaminlərin, bəzi mikroelementlərin pulsuz çatdırılması təşkil olunub və bu proses davam edir. Yeni, xəstələr qeydiyyata alınır, vəziyyətləri dəyərləndirildikcə, həmin dərmanlar onların evlərinə çatdırılır”.

# Türkiyədə koronavirusa yoluxma sayı 211 minə çatmaq üzrədir

Türkiyədə yeni növ koronavirus (COVID-19) infeksiyasının geniş yayılma riski qalmaqdadır. Çoxistiqamətli tədbirlərə baxmayaraq gündəlik yoluxma min nəfərdən artıqdır, ölüm və reanimasiyadakı xəstələrin sayında yüksəlmə müşahidə olunur. AZƏRTAC xəbər verir ki, iyulun 10-da Türkiyə üzrə 48 min 787 nəfər testdən keçirilib. Onlardan 1003 nəfər xəstə çıxıb. Gün ərzində 23 nəfər ölüb, 1493 nəfər sağalıb. Beləliklə, məlum infeksiyadan ölənlərin sayı 5 min 323 nəfərə çatıb. İndiyədək ölkə üzrə 3 milyon 881 min 410 nəfər testdən keçirilib. Onlardan 210 min 965 nəfərdə infeksiya aşkarlanıb, 191 min 883 nəfər xəstəlikdən sağalıb. Hazırda 1182 nəfər reanimasiyada, 402 nəfər süni nəfər aparatına qoşulmuş haldadır. Hər iki halda artım müşahidə olunur.

Türkiyə hökumətini çox ciddi narahat edən məsələlərdən biri əsgər yolasalma mərasimləridir. Məlum olduğu kimi, bu mərasimlər qardaş ölkədə böyük təntənə ilə keçirilir. Koronavirusa yoluxma riskini azaltmaq üçün ölkənin 24 vilayətində əsgər yolasalma mərasimlərinin kütləvi iştirakla qeyd olunması qadağan edilib.

# Arye Qut: “İsrail və Azərbaycan tarixboyu bir-birinə sadiq, çiyin-çiyinə olublar”

***Xarici KİV-lərdə yayılmış məlumata görə, Ermənistan Müdafiə Nazirliyinin KİV-lərində də fəaliyyət göstərən bir erməni hərbi ekspert anonimlik şərti ilə bildirib ki, guya İsrail Təl-Əvivdə Ermənistan səfirliyinin açılması müqabilində Ermənistana mühüm hərbi sirlər verməyə razılaşıb.***



AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut Ermənistan KİV-lərində də yayılmış bu təhrikçi informasiyanı şərh edib. Arye Qut qeyd edib ki, Ermənistan KİV-lərinin və Ermənistanın siyasi elitasının İsrail ilə Azərbaycan arasında ciddi qarşılıqlı münasibətlərə, o cümlədən bu iki ölkənin hərbi strateji əməkdaşlığına həmişə kin-küdurətlə və paxıllıqla yanaşması təəssüf doğurur.

Arye Qut vurğulayıb: “Ermənilər bir faktı heç cür “həzm edə” bilmirlər ki, Cənubi Qafqazda İsrailin strateji tərəfdaşı olan Azərbaycan bu hərbi-strateji tərəfdaşlıq sayəsində postsovet məkanında heç bir başqa ölkənin malik olmadığı texnoloji üstünlüklər qazanır. Bu, bizim tərəfdaşlığımızın paxıllığını çəkənlərə real və həqiqi cavabdır. İsrail-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır, bu iki dövlət arasında siyasi və hərbi-texniki tərəfdaşlıq ən yüksək etimada və daimi dialoqa əsaslanır.

Qutun sözlərinə görə, bu gün İsrail-Azərbaycan tərəfdaşlığı şaxələnərək energetika, kənd təsərrüfatı, yüksək texnologiyalar sənayesi, səhiyyə, hərbi-texniki tərəfdaşlıq sahələrini əhatə edir. İsrailli ekspert vurğulayır: “Ermənilər həsəd apara bilər, təhrikçi hərəkətlər törədə, cəfəng xəbərlər yaya bilər, lakin bu gün tarixi fakt ondan ibarətdir ki, Azərbaycanın hərbi sənayesinin qurulmasında İsrailin müdafiə şirkətləri fəal iştirak ediblər və bu iştirak davam edir. Bu baxımdan erməni təhrikçilər bilməlidirlər ki, bizim strateji münasibətlərimizə həsəd aparmaq o qədər də yaxşı hərəkət deyil. Azərbaycan uğurlu geosiyasi və geoiqtisadi təşəbbüslər sayəsində regionun ən güclü geosiyasi aktoruna çevrilib, Cənubi Qafqaz kimi strateji regionda heç bir siyasi, iqtisadi məsələ və nəqliyyat məsələsi Azərbaycanın iştirakı və razılığı olmadan həll edilə bilməz. Azərbaycan ilə İsrail arasında diplomatik münasibətlərin 28 illik tarixi ərzində yəhudi dövləti ilə əhalisinin əksəriyyəti müsəlmanlar olan dövlət arasında strateji münasibətlərin zəruri və həyat qabiliyyətli olması sübut edilib. Bizim dost ölkələr həqiqətən etibarlı strateji tərəfdaşlar kimi qarşılıqlı fəaliyyət göstərir, biz tarixboyu heç vaxt bir-birimizə xəyanət etməmişik, həmişə bir yerdə, çiyin-çiyinə olmuşuq.

Ermənistan KİV-lərində guya “İsrailin Təl-Əvivdə Ermənistan səfirliyinin açılması müqabilində Ermənistana mühüm hərbi sirlər verməyə razılaşması” barədə cəfəng provokasion xəbərlər yayması çox gülünc, məsuliyyətsiz, qeyri-ciddi və qeyri-adekvat təsir bağışlayır.

Arye Qut soruşur: Doğrudanmı Yerevanda belə düşünürlər ki, İsrailin Müdafiə Nazirliyində və bu nazirliyin nəzarəti altında fəaliyyət göstərən hərbi şirkətlərdə uzaqgörməz, səfeh və məsuliyyətsiz adamlar oturub, onlar Təl-Əvivdə dilənçi kökündə və perspektivsiz Ermənistanın səfirliyinin açılması naminə mühüm hərbi sirləri verməyə hazır olacaqlar. Vəziyyətə daxildən yaxşı bələd olan bir adam kimi, bu təhrikçilərə demək istəyirəm: onu görməyəcəksiniz! Özü də bundan sonra Ermənistan İsrail ilə etimada əsaslanan münasibətlər qurmağa ümid bəsləyir. Təhrikçi erməni cənablara xatırlatmaq istəyirəm ki, İsrailin hərbi-sənaye kompleksi İsrail Müdafiə Nazirliyinin nəzarəti altında fəaliyyət göstərən yetərincə ciddi qurum və peşəkarlardan ibarət çox məsul komandadır.

Ermənilərin yaydığı təhrikçi informasiyaya görə, “Azərbaycan cəbhə xəttində ermənilərə qarşı tədbir görə bilməyib, çünki ermənilər İsraildən alınmış informasiya əsasında profilaktik iş aparıblar”.

Növbəti sərsəmləmədir... Görünür, rəsmi Yerevan unudur ki, bugünkü Azərbaycan Ordusu qüdrətli, ən müasir texnika və silahlar, ən yüksək döyüş hazırlığı, şəxsi heyətin intizamı və döyüş ruhu deməkdir. Qut qeyd edir ki, müasir müharibədə hansı tərəf döyüş əməliyyatlarını daha müasir yüksək texnoloji vasitələrlə təmin etmək imkanına malikdirsə, həmin tərəf qalib gəlir.

İsrailli ekspert vurğulayıb: “2016-cı ilin Aprel əməliyyatı zamanı İsraildən alınmış pilotsuz zərbə qurğularının erməni işğalçılara qarşı səmərəli tətbiqini xatırlamaq kifayətdir və bu barədə çox danışmaq olar. Heç kəs unutmayıb ki, Azərbaycan Silahlı Qüvvələri 2016-cı il aprelin əvvəlində Ermənistanın hərbi provokasiyalarına cavab olaraq və öz vətəndaşlarının təhlükəsizliyini təmin etmək məqsədilə Ermənistan ordusuna sarsıdıcı zərbə endirdilər.

Arye Qut yazır: “Bir neçə ay bundan əvvəl mən təmas xəttində oldum və atəşkəs rejiminin amanabənd olmasını real hiss etdim. Müasir, güclü və müstəqil Azərbaycan artıq XX əsrin 90-cı illərinin sonunda gördüyümüz ölkə deyil. Hər kəs çox yaxşı anlayır ki, üçüncü ölkənin dəstəyi olmasaydı, dilənçi kökündə olan Ermənistan Azərbaycan ərazilərinin 20 faizini işğal edə bilməzdi. Azərbaycanın səbri artıq tükənməkdədir. Rəsmi Bakı Ermənistana dəfələrlə xəbərdarlıq edib ki, Azərbaycan mövcud status-kvo ilə heç vaxt razılaşmayacaq. Lakin Ermənistanın hərbi və siyasi rəhbərliyinin sərsəm bəyanatları və İsrail ilə Azərbaycanın arasını vurmaq cəhdləri onu göstərir ki, ermənilər çox narahatdırlar, qorxuya və təşvişə düşüblər”.

İsrailli ekspert vurğulayır: “2016-cı ilin Aprel hadisələri zamanı Azərbaycan Ordusunun sürətli əks-hücumundan sonra Ermənistan ordusunun müdafiə xətti sarsıdıldı, Azərbaycan Silahlı Qüvvələri strateji əhəmiyyətli bir neçə yüksəkliyi və yaşayış məntəqəsini öz nəzarəti altına qaytaranda biz Ermənistanda real antiisrail isteriyasının və antisemitizmin şahidi olduq.

Erməni diasporu hətta İsraildə də Azərbaycan-İsrail tərəfdaşlığına qarşı etiraz nümayişləri keçirdi. İsrail ilə Azərbaycanın hərbi əməkdaşlığı məsələsinin Ermənistan tərəfindən tənqid edilməsinə gəldikdə, vurğulamalıyıq ki, Azərbaycanın və İsrailin dostlarını və tərəfdaşlarını yalnız bu ölkələr özləri seçir, hərbi-texniki sahədə strateji əməkdaşlığın və tərəfdaşlığın səviyyəsini özləri müəyyən edir”.

Qutun sözlərinə görə, İsrail Dövləti Azərbaycanın ədalətli mövqeyini, onun ərazi bütövlüyünü fəal dəstəkləyir.

Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut məqaləsinin sonunda yazır: “Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı 28 ildən çoxdur ki, davam edir. Bu təcavüz nəticəsində Azərbaycanda 1 milyon insan qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Bu mürəkkəb geosiyasi şəraitdə Azərbaycanın ədalətli mövqeyinin Yaxın Şərqdə İsrail Dövləti kimi mühüm strateji tərəfdaş və güclü geosiyasi aktor tərəfindən dəstəklənməsi Azərbaycan üçün çox zəruri və çox əhəmiyyətlidir”.

# “Azərbaycan mətbuatı maarifçilik missiyası üzərində bərqərar olub”



“Azərbaycan mətbuatı maarifçilik missiyası üzərində bərqərar olub. Azərbaycanda yeni nəsil ziyalıların yetişməsində milli mətbuatımızın özünəməxsus rolu var. Azərbaycan mətbuatı 20-ci əsrin əvvəllərindən başlayaraq, ölkədə inqilabi fikrin formalaşmasında, Azərbaycanın öz müstəqilliyinə qovuşmasında yaxından iştirak edib”. Bu sözləri SİA-ya açıqlamasında Jurnalist Araşdırmaları Mərkəzinin sədri Seymur Verdizadə deyib.

JAM sədri bildirib ki, müasir Azərbaycan mətbuatı tarixi ənənələri davam etdirmək əzmindədir: “Bəzən biz mətbuatımızın yaradıcı missiyasından uzaq düşdüyünü düşünürük. Amma pandeniya ilə mübarizə göstərdi ki, milli mətbuatımız yenə də maarifləndirir, insanların yoluna işıq tutur. O cümlədən, Azərbaycana təcavüzü edən Ermənistanın beynəlxalq arenada ifşası prosesində də mətbuat yaxından iştirak edir. Həmçinin Azərbaycan mətbuatı vətəndaş cəmiyyəti quruculuğu prosesində iştirak edir, ölkədə milli birliyə, həmrəyliyə nail olmaq üçün fəal təbliğat kampaniyası aparır. Azərbaycanda fəaliyyət göstərən aparıcı mətbuat orqanlarının böyük əksəriyyəti dövlətçiliyin və milli maraqların yorulmaz təbliğatçısıdır. Azərbaycan mətbuatının fəaliyyətini bu kontekstdən dəyərləndirəndə, fərəh hissi keçirməyə haqqımız çatır”.

## “Paşinyanın reallığı nəzərə almaq qabiliyyəti də yoxdur”

“Ermənistanda son günlər baş verən hadisələr onu göstərir ki, Paşinyanın idarəetmə qabiliyyəti tam sıfırdadır. Onun nə siyasi təcrübəsi, nə də reallığı nəzərə almaq qabiliyyəti yoxdur. Bu məsələlərdən belə də nəticə çıxarmaq olar ki, onun demokratik şüarlarla hakimiyyətə gəlməkdə məqsədi siyasi rəqiblərini aradan çıxarmaq, kimlərdənsə 2008-ci ilin qisasını almaq və faktiki olaraq bütün hakimiyyəti qəsb edərək tək bir əldə saxlamaqdan ibarətdir”. Bunu SİA-ya açıqlamasında politoloq Fikrət Sadıqov deyib.



Onun sözlərinə görə, Paşinyan birinci mərhələdə rəqiblərini aradan götürüb və hətta bəzilərini həbs etdirərək cinayət işi açdırıb: “İkinci mərhələdə o, artıq öz tərəfdarlarını da uzaqlaşdırır. Onlardan biri də məhz keçmiş Dövlət təhlükəsizlik Xidmətinin rəisi Artur Vanesyan idi. İndi Artur Vanesyan partiya yaradıb və Paşinyana qarşı çıxış edir”.

Politoloq bildirib ki, hazırda isə Paşinyanın əsas rəqibi Konstitusiya məhkəməsidir: “Çünki Paşinyanın qəbul etdiyi bir çox qərarlar Konstitusiyaya ziddir və Paşinyanın məqsədi isə həmin qərarları təsdiq etdirməkdir. Konstitusiya məhkəməsi ali hüquq orqanı kimi o cür qərarları təsdiq etmək fikrində deyil. Faktiki olaraq Paşinyan parlamanetdə Konstitusiyaya düzəlişlərlə bağlı təklif edib və onun çoxluq təşkil edən partiya nümayəndələri bu təklifi təsdiq ediblər. Bu isə əsl çevrilişə cəhddir. Çünki belə bir düzəlişlər ancaq referendum yolu ilə həyata keçirilir. Əgər referendum yoxdursa, parlamentin Konstitusiya məhkəməsində düzəliş etmək hüququ yoxdur”.

F.Sadıqov vurğulayıb ki, bu halda belə bir mənzərə yaranır ki, Paşinyan hakimiyyəti öz əllərində cəmləşdirib qəsb etmək istəyir: “Artıq Paşinyana qarşı həm onun keçmiş tərəfdarları, həm rəqibləri, həm də digər siyasi qüvvələr açıq şəkildə çıxış edirlər. Düşünürəm ki, belə getsə hakimiyyəti əldə saxlamaq Paşinyan üçün olduqca çətin olacaq”.

***Aysel Məmmədova***

## “PAST” nəşri: “Paşinyan bu prosesin tezləşdirilməsində həvəslidir”

Ermənistanın “Past” qəzetinin yazdığına görə, ölkə parlamentinin məzuniyyətə çıxacağı vaxt dəqiqləşdirilməyib və qanunverici orqana “ehtiyac” hər an duyula bilər. “Məlum olduğu kimi, növbəti sessiya başa çatıb, lakin növbədənkənar iclaslar seriyası davam edir”, yazan erməni nəşri qeyd edir ki, artıq iyulun 13-də təcili iclasın çağırılması da bunu göstərir. İclasın mövzusu isə, Paşinyan hakimiyyətinin başına bəla gətirən koronaviorusla mübarizədə məğlubiyyət durumudur. Qəzetin yazdığına görə, iclasda fövqəladə halın daha bir ay müddətinə uzadılması müzakirə ediləcək.



“Past” onu da qeyd edir ki, ümumilikdə parlamentin gündəmində elə bir məsələ də yoxdur ki, onu təcili şəkildə müzakirəyə çıxarsınlar. Lakin hakimiyyət üçün bir sıra həlledici məsələlər hələ də havadan asılı vəziyyətdə qalıb. “Xüsusilə konstitusiya məhkəməsinin üzvlərinin seçilməsi məsələsi qeyri-müəyyən olaraq qalmaqda davam edir”, yazan nəşr bildirir ki, yaxın mənbələrinin dediklərinə görə, həmin məsələ payız aylarına qədər uzadılacaq: “Paşinyan bu prosesin tezləşdirilməsində həvəslidir, lakin başqa tərəfdən onlar ATƏT DTİHB-nin bununla bağlı hansı qərar verəcəyini anlamalıdırlar”. Adıçəkilən nəşr Avropa siyasi dairələrinin bununla bağlı Ermənistana qarşı sərt bəyanatlar səsləndirəcəyini də istisna etməyib.

## COVID-19 virusunun havada qalaraq yoluxdurucu rol oynaması fərziyyəsi hələlik təsdiqini tapmayıb




***Son vaxtlar bəzi alimlər koronavirusun (COVID-19) havada qalması və insanları yoluxdurması barədə fərziyyələr irəli sürürlər. Həmin fərziyyənin təsdiqini tapması insanların davranışının tam dəyişməsi ilə nəticələnə bilər.***

AZƏRTAC xəbər verir ki, Səhiyyə Nazirliyi yanında İctimai Səhiyyə və İslahatlar Mərkəzinin şöbə müdiri Nabil Seyidov həmin məsələyə aydınlıq gətirərək deyib: "Aparılan son tədqiqatlar göstərir ki, virusa nə qədər çox yoluxan olursa, onun yoluxduruculuq qabiliyyəti artmış, öldürücü qabiliyyəti azalmış olur. Digər pandemiyalarda da belə hallar müşahidə edilib. Lakin bu barədə danışmaq hələ tezdir. Bu yaxınlarda Çin və Koreya Respublikasının alimləri belə bir məlumat veriblər ki, Seul şəhərinə yaxın bir şəhərdə koronavirus-2 infeksiyasının yoluxduruculuq qabiliyyəti daha yüksək olan ştamı, yəni altnövü aşkarlanıb. Bu, virusun mutasiya edərək daha çox yoluxdurduğunu göstərir. Bununla birlikdə onun ölümcül təsirinin də azalacağına da ümid bəsləmək olar.

"Virusun havada qalmağı ilə əlaqədar fikirlər öz təsdiqini taparsa, bu, davranışda çox ciddi dəyişikliklərə səbəb ola bilər. İndiyə qədər aparılan tədqiqatlar onu göstərir ki, tibb müəssisələri istisna olmaqla virusun yayılması, daha çox hava-damcı və təmas yolu ilə baş verir. Burada hava-damcı yolu daha üstünlük təşkil edir. Yəni, asqıranda, öskürəndə ağız boşluğundan ifraz olunan damcıların içindəki viruslar başqalarının ağız-burun boşluğuna, gözünə və ya hansısa səthlərə düşərək təmas zamanı onları da infeksiyaya yoluxdura bilər. Ona görə də mütləq maska taxılması tövsiyə olunur. Həmin damcılar maskaya hoparaq içəriyə keçmir. İnfeksiyaya yoluxmuş xəstə də maska taxmalıdır ki, ifraz olunan damcılar onun öz maskasına hopsun. Bir yerə toplanan bir neçə nəfərin maska taxması virusun yayılmasının qarşısını alır və yoluxma zənciri qırılır.

Əgər havada virus hüceyrələrinin qalması və daha çox insanı yoluxdurması fərziyyəsi doğru olsaydı, onda yoluxanların sayı bir milyardan çox olardı. Lakin bu, heç də havada virusun yoxluğu demək deyil. Virus havada daha çox aerozol qismində olur və belə yerlər məhz tibb müəssisələridir. Hətta koronavirus infeksiyasına yoluxanların uzun müddət qaldığı palatalarda da aerozolun olması ehtimalı çox azdır. Heç bir hissəcik uzun müddət havada qala bilməz. Buna baxmayaraq, tibb müəssisələrində fəaliyyət göstərən tibb işçiləri və COVID-19 xəstələri ilə təmasda olanlar N95, FFP2 və ya FFP3 maskasından istifadə etməlidirlər. Həmin maskaların əsas xüsusiyyəti həm hava-damcı yolu ilə, həm də havadan keçən virusdan qorumaq qabiliyyətinin olmasıdır. Virusun ictimai yerlərdə toplanma zamanı insanları hava yolu ilə yoluxdurması fərziyyəsi öz təsdiqini tapana qədər vətəndaşların adi tibbi maskadan istifadə etməsi kifayətdir. Heç bir beynəlxalq tibb cəmiyyəti, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatı bu tövsiyələrini dəyişmir. Çünki virusun ictimai yerlərdə, küçədə hava ilə ötürülməsini təsdiq edən araşdırmalar hələ ki, yoxdur. Fərziyyə təsdiqini taparsa, buna dair tövsiyələr də olacaq", - deyə N.Seyidov bildirib.

## Rusiyadan Azərbaycan sərhədinə gedən "Qafqaz" avtomobil yolu yenidən qurulur



Şimali Osetiyada Azərbaycan sərhədinə gedən "Qafqaz" avtomobil yolu yenidən qurulur. AZƏRTAC xəbər verir ki, Şimali Qafqazdan Azərbaycanadək gələn "Qafqaz" avtomobil yolu genişləndiriləcək. Yolun 8 kilometrlik sahəsində təmir işləri bu ilin sonunadək başa çatacaq. Avtomobil yolunun əvvəllər 2 zolaqdan ibarət Beslan-Çermen hissəsi dördzolaqlı olacaq, yeni metal məhəccərlər, yol nişanları və sair qoyulacaq. Qeyd edək ki, R-17 "Qafqaz" avtomobil yolu Krasnodardan başlayaraq Azərbaycanın sərhədinə kimi uzanır.

## "Bakıda ambulator şəraitdə müalicə olunan 10 mindən çox şəxs var"



Hazırda Bakı şəhərində ambulator şəraitdə müalicə olunan 10 min 202 şəxs var. Bu, kifayət qədər böyük rəqəmdir. AZƏRTAC xəbər verir ki, bu barədə Nazirlər Kabineti yanında Operativ Qərargahın mətbuat konfransında Səhiyyə Nazirliyi Aparatının rəhbəri Nadir Zeynalov məlumat verib. Onun sözlərinə görə, müalicə olunanlar arasında simptomsuz, yüngül xəstəlik əlamətləri olanlar, uşaqlar və başqaları var. Regionlarda ambulator müalicənin aparılmasına ciddi zərurət yoxdur.

## AŞPA-nın iclasında pandemiya dövründə insan haqlarının qorunması ilə bağlı müzakirələr aparılıb



İyulun 10-da AŞPA-nın Bərabərlik və qeyri-diskriminasiya komitəsinin onlayn formatında növbəti iclası keçirilib. Toplantıda "Böhran və pandemiya dövründə insan haqlarının qorunması: gender bərabərliyi və ayrı-seçkilik", "Süni intellektdən istifadənin yaratdığı ayrı-seçkiliyin qarşısının alınması" kimi aktual məsələlərlə bağlı müzakirələr aparılıb.

AZƏRTAC xəbər verir ki, iclasda ölkəmizi təmsil edən Milli Məclisin deputatı, Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin üzvü Könül Nurullayeva çıxış edərək süni intellektlə bağlı fikirlərini bölüşüb. İlkin hesabata istinad edən deputat süni intellektin həyat tərzimizi dəyişdirməsi faktını təsdiqləyərək, eyni zamanda, onun bir çox müsbət tərəflərinin olduğunu da vurğulayıb. Onun sözlərinə görə, süni intellekt irq və ya gender əsasında ayrı-seçkiliyi aşkarlamağa kömək edir, eyni zamanda, xəstələrin ümumi sağlamlıq vəziyyətini yoxlamaq və təhlükəli xəstəlikləri qabaqcadan təyin etmək üçün səhiyyə sektorunda tətbiq edilə bilər. Bununla yanaşı, süni intellekt təmiz, faktiki olaraq sonsuz bir nüvə istilik enerjisini inkişaf etdirmək səylərini sürətləndirir. Qeyd edilib ki, qərəz və ayrı-seçkilik süni intellekt vasitəsilə yayıla bilər, çünki mövcud ayrı-seçkiliyə qarşı qanunlarla texnologiyanın yeni imkanları arasında boşluqlar var. Bu boşluq mədəni geriləmə adlanır.

K.Nurullayeva Azərbaycanın süni intellektə münasibətini və bu sahədə ölkəmizin təcrübəsini də diqqətə çatdırıb: "Azərbaycanın bir çox sahələrdə süni intellekt tətbiq etmək məqsədi var. Süni intellekt yaxın gələcəkdə daha çox enerji sənayesi, təhsil, ədliyyə, nəqliyyat və insan hüquqları sektorunda tətbiq ediləcək", deyən K.Nurullayevanın qənaətincə, alqoritmlər gələcəkdə qərar qəbul edən şəxslərdən daha yaxşı nəticələr verə bilər.

## Emmanuel Makron İsraili Fələstin ərazilərinin ilhaqından çəkinməyə çağırıb




Fransa Prezidenti Emmanuel Makron İsraili Fələstin torpaqlarının ilhaqı üzrə planlarından imtina etməyə çağırıb. AZƏRTAC xəbər verir ki, bu barədə Emmanuel Makronla İsrailin Baş Naziri Binyamin Netanyahu arasında baş tutan telefon danışığından sonra Yelisey sarayının yaydığı rəsmi məlumatda bildirilir.

Sənəddə, həmçinin qeyd olunur ki, telefon danışığı zamanı Fransa lideri ölkəsinin Yaxın Şərqdə sülh tərəfdarı olduğunu xatırladıb və İsraili Fələstin ərazisinin ilhaqına yönəlmiş hər hansı addımdan çəkinməyə çağırıb. İlhaq tədbirlərinin beynəlxalq hüquqa zidd olduğu və Yaxın Şərq böhranının iki dövlət yaradılması əsasında həllini təhlükə altında qoya biləcəyi vurğulanıb.

Prezident bir daha bəyan edib ki, Fransa İsrailin təhlükəsizliyini dəstəkləyir və onun Yaxın Şərqdə gərginliyin azaldılması üzrə cəhdlərini alqışlayır. Emmanuel Makron, həmçinin Fransa və İsrail arasında dostluğa və etimada sadiq qaldığını da bildirib.

## BNA avtobuslarda sərnişin sıxlığına aydınlıq gətirdi




Sərt karantin rejimin tətbiq edilməsi çərçivəsində metronun fəaliyyətinin dayandırılması ilə avtobuslara olan tələbat artıb. SİA-nın məlumatına görə bu barədə açıqlamasında Bakı Nəqliyyat Agentliyinin Mətbuat katibi Mais Ağayev deyib.

Onun sözlərinə görə bu da təbiidir, çünki metrodan əlavə fəaliyyətdə olan tək ictimai nəqliyyat növü avtobuslardır: "Bunu nəzərə alaraq müntəzəm xətlərlə yanaşı sərnişinlərin rahat gediş-gəlişini təmin etmək üçün 7 ekspres marşrut xəttlərin fəaliyyəti bərpa edilib. Bununla yanaşı sərnişin tələbatını qarşılamaq üçün avtobusların sayı da artırılıb. Əgər iyulun 3-dək gündəlik xəttə 153 marşrut xətti üzrə 1650 avtobus çıxırdısa hazırda ümumilikdə xəttə 1850-dən artıq avtobus çıxır. Hər gün səhər və axşam zərurət olan istiqamətlərdə ekspres xətlərə əlavə avtobuslar cəlb edilir. Hər gün ekspres xətlər üzrə 70-dən artıq avtobus ehtiyyat olaraq cəlb edilir. Bir avtobusun bir xətdən digərinə keçməsi əslində çox çətin bir prosesdir. Ən əsası sürücüyə marşrut xətti təlimatlandırılmalıdır. Lakin indiki halda belə bir zaman baxımından rahatlığımız yoxdur. Hər şey çevik olmalıdır. Həmçinin təhlükəsiz formada icra olunmalıdır. Bu gün aprel-may aylarına da nəzər yetirsəniz sərnişindaşımalarında hər hansı bir ciddi qəza halı qeydə alınmayıb. Həyata keçirilən əksepidemik tədbirlər sayəsində bu gün ictimai nəqliyyatın işinin təşkilində zəhməti əsasında ciddi yoluxma halı yoxdur. Bütün bunlar düzgün idarə etmənin düzgün yanaşmanın nəticəsidir. Bəli bu gün səhər və axşam saatlarında sərnişin artımı müşahidə olunur. Gündəlik qeydə alınan rəqəmlər də hər ötən gün sərnişin səfər sayının orta hesabla 5-6% artdığını göstərir".

# "Dünyanı həmrəyliyə dəvət edən çağırış"

***Dünya 4-cü sənaye inqilabının astanasında olduğu,çox sürətli social- iqtisadi və texnoloji proseslər getdiyi bir zamanda bəşəriyyəti lərzəyə salan COVİD-19 virusunun bütün planeti cənginə alması istər sosial-iqtisadi, istərsə də humanitar sahədə olduqca çətin və mürəkkəb bir vəziyyət yaratmışdır.***

Dünya COVİD-19 virusu ucbatından çox ciddi problemlərlə üzləşmişdir. Bir çox sənaye sahələrində istehsal prosesi kəskin surətdə azalmış, neftə tələbat azaldığından dünya bazarında neftin qiyməti kəskin aşağı düşmüş,bu səbəbdən neft hasilatı azaldılmış, yüz minlərlə işçi qüvvəsi ixtisara edilmiş, neft gəlirləri kəskin azalmış, həmin sahədə çalışan insanların həyat səviyyəsinə ciddi təsir göstərmişdir. İqtisadiyyatın bir sıra sahələri-turizm sektoru, restoran və iri ticarət mərkəzləri, mərasim evləri, mədəni-kütləvi istirahət yerləri, mehmanxana sektoru, istirahət və müalicə müəssisələri, sərnişindaşıma üzrə nəqliyyat sahələri və s. öz fəaliyyətini tamamilə dayandırmış, nəticədə dövlətlərin büdcəsinin, eləcə də sahibkarların və bu sahələrdə fəaliyyət göstərən fiziki şəxslərin gəlirləri milyardlarla dollar azalmış , işsizlik artmış, əhalinin dolanışıq səviyyəsi aşağı düşmüşdür.

Əhalinin pul gəlirlərinin aşağı düşməsi, sahibkarlıq subyektlərinin fəaliyyətinin dayandırılması nəticəsində dövlətlər öz büdcəsindən həmin sektora kompensasiya, yardım və müavinət formasında milyardlarla dollar vəsait ödəmək məcburiyyətində qalmışlar.

Pandemiya başlayandan və bir sıra ölkələrdə pik həddinə çatdıqdan sonra virusa yoluxmanın azalması, karantin tədbirlərinin yumşalmasına şərait yaratmasına baxmayaraq, verilən proqnozlar özünü doğrultmamış, virusa yoluxmanın enməsi baş verməmiş, əksinə bir çox ölkələrdə yenidən alovlanmağa başlamışdır.

Pandemiyanın pik vəziyyətə çatdığı günlərdə, mart-may aylarında ayrı-ayrı dövlətlər öz resurslarını və imkanlarını ölkə daxilində səfərbər edərək pandemiyanın qarşısının alınması istiqamətində müəyyən nəticələrə nail olsalarda, bu nəticələr müvəqqəti xarakter daşımış və hazırda COVİD19-un yeni dalğası qarşısında bir sıra dövlətləri aciz qalmışlar. COVİD-19 Azərbaycandan da yan keçməmiş, mart ayının son günlərindən başlayaraq gözəgörünməz düşmən bizim də qapımızı döyməyə başlamışdır. Ölkə rəhbəri Cənab İlham Əliyevin müəyyənləşdirdiyi kompleks tədbirlər hesabına COVİD-19- la mübarizədə bir sıra uğurlar əldə edilmişdir.

Eyni zamanda cənab Prezident bir sıra qlobal təşəbbüslərlə çıxış etmiş,Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində iki dəfə yardım göstərmiş, dünyanın 30-dan çox ölkəsinə maliyyə vəsaiti, müxtəlif tipli ləvazimatlar və digər zəruri yardımlar göstərmişdir.

Bu il aprelin 10-da dünya ilk dəfə olaraq Türk Şurası dövlətlərinin videokonfrans formatında pandemiya ilə əlaqədar fövqəlad Zirvə görüşünün keçirilməsi təşəbbüsü ilə çıxış edərək Türk Dilli dövlətləri pandemiya ilə əlaqədar səyləri birləşdirməyə səslədi. Bəli bu indiyədək beynəlxalq təcrübədə rast gəlinməyən ilk tədbir idi və Türk dövlətlərinin başçıları tərəfindən rəğbətlə və dəstəklə qarşılandı.

Məlumdur ki, bu gün Azərbaycan xarici siyasət kursunun kökündə Ümumilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətt dayanır və bu kursu cənab Prezidentimiz İlham Əliyev uğurla davam etdirməkdədir. Ölkə başçısı 2003-cü ildən başlayaraq dünyanın aparıcı dövlətlərinin başçıları ilə ikitərəfli görüşləri, qonşularla mehriban qonşuluq siyasəti Azərbaycan Prezidentinin nüfuzunu etibarlı tərəfdaş kimi günbəgün artırmaqdadır. Azərbaycan üzv olduğu beynəlxalq təşkilatlarda - MDB, Türk Şurası, QUAM, Avropa Şurası dövlətləri ilə həm təşkilat çərçivəsində, həm də ikitərəfli formatda səmərəli qarşılıqlı hörmətə əsaslanan əməkdaşlıq əlaqələri qurmuşdur.

?Azərbaycan iqtisadi sahədə də regionun çox mühüm bir dövlətinə çevrilmişdir. Ölkəmizin şaxələndirilmiş neft və qaz kəmərləri təkcə regionun deyil, həm də Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Azərbaycan "Qədim İpək yolunun" bərpası layihəsində, Çin Xalq Respublikasının təşəbbüskarı olduğu "Bir Kəmər, Bir Yol" fəal iştirak edir.



***Ramiz Göyüşov***
***YAP Binəqədi rayon təşkilatının sədri***

?Qürurla deyə bilərik ki, bu gün Azərbaycan nəhəng "Şərq-Qərb" və "Şimal- Cənub" nəqliyyat dəhlizlərinin qurulmasının təşəbbüskarı və ən fəal iştirakçısıdır.

Son illər ölkəmizin " I Avropa oyunlarına", "İslam Həmrəyliyi" oyunlarına, bir sıra çoxsaylı dünya və Avropa çempionatlarına, yüksək səviyyəli beynəlxalq yarışlara ev sahibliyi etməsi Azərbaycanın bir iqtisadiyyatı güclü, stabil inkişaf edən, sabit bir dövlət kimi dünyaya nümayiş etdirir.

?2011-ci ildə Azərbaycan Prezident Cənab İlham Əliyevin təşəbbüsü ilə dünyada BMT-dən sonra ikinci beynəlxalq təşkilat olan Qoşulmama Hərəkatına üzv qəbul edildi. Bu hadisənin Azərbaycan dövlətinin taleyində nə qədər mühüm rol oynayacağını cənab Prezidentin nə qədər uzaqgörən, düşünülmüş və düzgün addım olduğunun biz cəmi bir il sonra şahidi olduq. 2012- ci ildə Azərbaycan məhz Qoşulmama Hərəkatına üzv olan dövlətlərin həmçinin əlavə 35 dövlətin dəstəyi ilə 21 illik müstəqillik tarixində çox mühüm bir uğura imza ataraq BMT Təhlükəsizlik Şurasının Qeyri -Daimi üzvü seçildi və bir neçə ay həm də BMT Təhlükəsizlik Şurasına sədrlik etdi. Bu Azərbaycan Dövlətçilik Tarixində misli görünməmiş bir uğur idi.

Təhlükəsizlik Şurasına sədrliyi dövründə BMT-də Azərbaycan təşəbbüsü ilə çox mühüm məsələlər müzakirəyə çıxarılmış və qərarlar qəbul edilmişdir. Əlamətdar və fərəhləndirici haldır ki, BMT-yə sədrlik dövründə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə 2012-ci il mayın 4-də BMT Təhlükəsizlik Şurasının iclası keçirilmiş, iclasda ölkəmizin təşəbbüsü ilə "Terror aktlarının beynəlxalq sülh və təhlükəsizliyə təhdidlər" mövzusunda müzakirələr aparılmış, müzakirədə Azərbaycanın Prezidenti cənab İlham Əliyev çıxış edərək Ermənistanı terroru dəstəkləyən dövlət olduğunu dünyaya çatdırıb. 2013-cü ildə BMT Təhlükəsizlik Şurasının iclasında Azərbaycan Təşəbbüsü ilə "Birləşmiş Millətlər Təşkilatı və İslam Əməkdaşlıq Təşkilatı arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi" mövzusunda çox mühüm müzakirələr aparılmışdır.

?Ümumiyyətlə Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrliyi dövründə 59 iclası keçirilmiş, bu müzakirələrin yekunu üzrə müvafiq qətnamə, qərar və bəyanat qəbul edilmişdir.

Bütün bu müzakirələrdə Azərbaycan haqqın, ədalətin tərəfində olmuş və dünyada sülh və təhlükəsizliyə böyük töhfələr vermiş, Azərbaycana böyük nüfuz gətirmişdir.

Qoşulmama Hərakatının XVII Zirvə görüşündə Hərəkata üzv ölkələrin yekdil qərarı ilə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022- ci illərdə təşkilatın sədrliyinin Azərbaycana həvalə edilməsi barədə qərar qəbul edilərkən istər ölkə daxilində, istərsə də ölkə xaricində Azərbaycanı istəməyən qüvvələr bu hadisəyə ağız büzürdü.Lakin tarix sübut etdi ki, Azərbaycan Prezidenti Cənab İlham Əliyev nə qədər müdrik və düzgün qərar qəbul edib.

Ölkəmiz eyni zamanda müxtəlif beynəlxalq humanitar formların, mədəniyyətlər arası, sivilizasiyalararası beynəlxalq humanitar forumların mərkəzinə çevrilmişdir. Azərbaycan humanitar sahədə, ölkələr, millətlər arasında qarşılıqlı əməkdaşlığın etimadının yaxşılaşdırılmasında mühüm rol oynamaqla beynəlxalq münasibətlərə mühüm töhfələr verir.

Ölkəmizin birinci vitse-prezidenti, "Heydər Əliyev Fondu"nun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə "Heydər Əliyev Fondu" dünyada Azərbaycan milli-mənəvi dəyərlərinin təbliğində, dünya xalqları arasında mədəni əlaqələrin inkişafında, dünya mədəni irsinin qorunub saxlanılmasında, səhiyyə, təhsil, mədəniyyət və idman sahəsində həyata keçirdiyi layihələr dünya mədəniyyətinə öz töhfələrini verməklə Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasında mühüm rol oynayır.

Bütün sadalananlar Azərbaycanın dünyada böyük nüfuz qazanmasına şərait yaratmışdır.İndi dünyada Azərbaycanla maraqlı olan hər kəs bilir ki, Azərbaycan müstəqil siyasət yeridir. O, güclü dövlətdir, onun qətiyyətli cəsarətli və ağıllı, sözü bütöv, cənab Prezidentimizin özünün ifadəsi ilə desək "Bizim sözümüz imzamız qədər təsirlidir və bunun təsiri eynidir. Biz sözümüzü tutan ölkəyik." deyən dövlət başçısı var.Bu baxımdan Azərbaycanın və onun dövlət başçısı cənab İlham Əliyevi dünyada mövcud problemlərin həlli hər zaman narahat etmiş və o,bu problemlərin həlli ilə əlaqədar qlobal çağırışlar və təşəbbüslərlə çıxış edir.

COVİD-19 pandemiyasının elan edildiyi ilk günlərdən Azərbaycan ölkə daxilində zəruri tədbirlərlə yanaşı eyni zamanda, pandemiyadan daha çox ziyan çəkən ölkələrə də əlini uzatdı.Fərəhləndirici haldır ki, öz fəaliyyətini Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyələri əsasında quran Azərbaycan hökumətinə görülən işlərə görə elə pandemiyanın ilk günlərindən yüksək qiymət verildi. ÜST Azərbaycanda fəal iş aparmaqla yanaşı həm də beynəlxalq səviyyədə Azərbaycanının təşəbbüslərini dəstəkləyir. Təsadüfi deyil ki, ÜST Azərbaycan təşəbbüskarı olduğu Zirvə görüşlərində iştirak edir və bu görüşlərdə Azərbaycanın fəaliyyətinə yüksək dəyər verir.

Bu gün Azərbaycan iki beynəlxalq təşkilata Türk Şurasına və Qoşulmama Hərəkatına sədrlik edir. Təbii ki, beynəlxalq təşkilata sədrlik etmək ölkənin böyük beynəlxalq nüfuzuna dəlalət etməklə yanaşı həm də məsuliyyət yaradır. Qürur hissi ilə qeyd etməyi lazım bilirəm ki, Azərbaycan dövləti və onun başçısı cənab İlham Əliyev bu statusda da dünyaya nümunə göstərir.Artıq hər kəsə və bütün dünya ictimaiyyətinə məlumdur ki, dünya praktikasında ilk dəfə olaraq cənab Prezident İlham Əliyevin birbaşa təşəbbüsü ilə online formatında görüşlər keçirilir.

Qeyd etmək yerinə düşər ki, Türk Dilli Dövlətlərin Əməkdaşlıq Şurasını və Qoşulmama Hərəkatına üzv ölkələr Zirvə görüşləri çox uğurlu keçmişdir. Qəbul edilmiş sənədlərdə Azərbaycan və onun Prezidenti cənab İlham Əliyevin bu təşəbbüsü və pandemiya ilə mübarizədə oynadığı rolu və həmrəyliyə hesablanmış addımları yüksək qiymət almışdır.

Bu gün Azərbaycan Qoşulmama Hərakatının sədri kimi öz liderlik missiyasını daha fəal şəkildə nümayiş etdirir. Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyev təksə təşkilatın sədri funksiyasını deyil,həm də hardasa müxtəlif supergüclər tərəfindən haqqları pozulan,təzyiqlərə məruz qalan,hüquqları tapdalanan dövlətlərin lideri kimi çıxış edir. Dediklərimə əyani misal olaraq Cənab ilham Əliyevin təşəbbüsü ilə may ayının 4-də Qoşulmama Hərakatına üzv olan dövlətlərin Zirvə görüşündə məhz Cənab İlham əliyevin təşəbbüsü ilə BMT-nin Baş Katibi, BMT Baş Assambleyasının prezdenti,Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru,Afrika İttifaqının sədri, Avropa ittifaqının yüksək səviyyəli nümayəndəsi iştirak etməsi Cənab İlham Əliyevin beynəlxalq nüfuzundan xəbər verir.

Məhz həmin Zirvə görüşündə Prezident İlham Əliyev qlobal həmrəyliyin və əməkdaşlığın nümunəsi kimi pandemiya ilə mübarizədə səyləri birləşdirmək məqsədilə BMT Baş Assambleyasının xüsusi sesiyasının çağırılması təşəbbüsü ilə çıxış etdi.

Qeyd etmək lazımdır ki.təşəbbüs Hərəkata üzv olan 120 dövlət tərəfindən dəstək aldıqdan sonar təşkilatın sədri Cənab İlham Əliyev məktubla BMT-nin Baş Katibi Antonio Quterreşə müaciət etmiş və az müddət içində BMT üzvü olan dövlətlərin 130-dan çoxu bu təşəbbüsə dəstək nümayiş etdirmişdir. Elə bu faktın özü Azərbaycanın beynəlxalq səviyyədəki nüfuzundan ən bariz göstəricisidir.

Baş Assambleyanın xüsusi sessiyasından dünya ictimaiyyətinin gözləntiləri çoxdur. Yəqin ki, bu gözləntilər pandemiyanın peyvəndindən tutmuş virusa yoluxmuş insanların müalicəsi üçün dərmanların tapılmasınadək, pandemiyanın müalicəsi üçün dərmanların,inventarların və avadanlıqların bütün dövlətlər üçün əlçatan olmasınadək, pandemiyanın qarşısını almaq və fəsadlarını aradn qaldırmaq məqsədilə xüsusi ümumdünya fondunun yaradılmasınadək,həkimlərdən,virusoloqlardan,mütəxəssislərdən ibarət xüsusi dəstənin,institutun yaradılmasınadək,dünya iqtisadiyyatının tənzimlənməsinədək,əmək miqrantlarının hərəkətinədək,gömrük ,viza və xüsusi icazələrədək, pandemiya ilə əlaqədar bütün dünya üzrə təxmini norma və qaydaların işlənilməsinədək geniş spektr məsələləri əhatə edir. Ola bilər ki, bu məsələlərin hamısı sesiyanın müzakirə obyekti olmasın. Lakin bir həqiqət aydındır. Bu müzakirə fikrimcə Pandemiya ilə mübarizədə dönüş nöqtəsi olacaq.

Və səlnaməçilər 2020-ci ilin COVİD-19 pandemiyası haqqında tarix kitabını yazanda bu sesiyanın xüsusi əhəmiyyətini hökmən qeyd edəcəklər. Kitabının həmin səhfəsində Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərakatının sədri İlham Əliyevin adı qırmızı xəttlə keçəcək.

## "Azərbaycan mediası böyük inkişaf yolu keçib"



"Bu gün Azərbaycanda mətbuata, bu sahənin inkişafına böyük diqqət və qayğı var. Hər il dövlət büdcəsindən bu sahənin inkişafına maliyyə yardımları ayrılır, jurnalistlər üçün mənzillər inşa olunur. Bütün bunlar dövlətin bu sahəyə diqqət və qayğısının təzahürüdür". Bunu SİA-ya millət vəkili Ceyhun Məmmədov deyib. Deputatın sözlərinə görə, bu gün Azərbaycanda media qurumları sərbəst və azad fəaliyyət göstərir: "Azərbaycan mediası böyük inkişaf yolu keçib. Müstəqillik illərində bir neçə mətbu orqan mövcud idisə, bu gün ölkəmizdə çoxlu sayda media qurumları fəaliyyət göstərir. Bu gün dünyada güclü informasiya müharibəsi gedir. Bu gün bir sıra müsəlman ölkələrində ictimai fikirə təsir etmək və sabitliyi pozmaq üçün medianın imkanlarından geniş istifadə olunur. Bu baxımdan milli medianın üzərinə böyük vəzifələr düşür.

Bu gün sosial şəbəkələr ənənəvi media ilə ciddi rəqabət aparır. Bir sıra hallarda məqsədli şəkildə əsası olmayan xəbərlər yayılır, süni gərginliyin yaradılmasına çalışılır. Bu kimi halların qarşısının alınmasında milli mətbuatın üzərinə ciddi vəzifələr düşür. Pandemiya dövründə gərgin işləyən qurumlardan biri də media oldu və müəyyən mənada bu vəzifənin öhdəsindən layiqincə gəldilər. Dövlətin həyata keçirdiyi tədbirlər, qəbul etdiyi qərarların cəmiyyətə çatdırılmasında media böyük rol oynayır.

Fürsətdən istifadə edib bu gün münasibətilə bütün media nümayəndələrini qarşıdan gələn Milli Mətbuat Günü münasibətilə təbrik edir, hər birinə gələcək fəaliyyətlərində uğurlar arzulayıram".

# ÜST Azərbaycanın digər ölkələrə yardımını təqdir edir

*Şəmsəddin Xanbabayev: "Prezident İlham Əliyevin təşəbbüsünü dəstəkləməsi dünya dövlətlərinin Azərbaycana və onun liderinə hörmətinin əyani təsdiqidir"*



***"Bəşəriyyət üçün qlobal təhlükəyə çevrilən pandemiya, dünya dövlətlərinin öz gücünü bir daha səfərbər etməsi zərurətini meydana çıxarıb. Məhz belə bir ərəfədə Azərbaycanın təşəbbüsü növbəti dəfə ələ alaraq dünya dövlətlərini birgə mübarizəyə səsləməsi dövrün tələbinə uyğun olması və aktuallığı ilə diqqət çəkir". Bu fikirləri SİA-ya açıqlamasında YAP Xaçmaz rayon təşkilatının sədri Şəmsəddin Xanbabayev deyib.***

Ş.Xanbabayev bildirib ki, Prezidnt İlham Əliyevin BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində videokonfrans vasitəsilə xüsusi sessiyasının keçirilməsi təklifi birmənalı olaraq Azərbaycanın beynəlxalq rakusda pandemiyaya qarşı mübarizədə iştirakçılığının ciddiliyini, əhəmiyyətini ortaya qoyur: "Dünyanın 130-dan çox dövlətinin Prezident İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının təşkil olunması təşəbbüsünü dəstəkləməsi həm də bu təşəbbüsün vaxtında irəli sürüldüyünü bir daha təsdiq edir. Qeyd etmək istərdim ki, dünyada koronavirus pandemiyası başlayandan bəri Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası tərəfindən COVID-19-a qarşı regional və qlobal səviyyədə mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə zəruri təşəbbüslər irəli sürülür və əməli addımlar atılır. Qoşulmama Hərəkatının sədri olan Prezident İlham Əliyevin təşəbbüsü ilə mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun COVID-19 pandemiyasına həsr edilmiş onlayn Zirvə görüşü təşkil edildi. Bu tədbirdə Qoşulmama Hərəkatına üzv dövlətlərlə yanaşı, BMT-nin Baş katibi, BMT Baş Assambleyasının prezidenti, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru, Afrika İttifaqı və Avropa İttifaqı kimi beynəlxalq təşkilatların yüksək çinli nümayəndələri də iştirak etdilər. Tərkibində 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı BMT-dən sonra dünya dövlətlərinin təmsil olunduğu ikinci ən böyük siyasi təsisatdır. Bundan əvvəl isə Prezident İlham Əliyevin təşəbbüsü ilə pandemiyaya qarşı mübarizəyə həsr edilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşü keçirilib. Eyni zamanda, Azərbaycan COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin nümunəsi kimi Ümumdünya Səhiyyə Təşkilatına könüllü ianə ayırıb, 30-dan artıq dövlətə humanitar yardım edib".

Ş.Xanbabayev Azərbaycan Prezidentinin BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsi təklifinin 130-dan çox dövlətləri tərəfindən dəstəklənməsi Azərbaycan diplomatiyasının nailiyyəti olduğunu deyib. Rayon təşkilatının sədri onu da vurğulayıb ki, bu təşəbbüsə qarşı çıxış edən yeganə dövlət Ermənistan olub: "Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünün bir daha təcavüzkar mahiyyətini göstərdi. Xatırladaq ki, bir qədər əvvəl Azərbaycan Prezidenti Şərq Tərəfdaşlığı ölkələrinin iyunun 18-də videokonfrans formatında keçirilən sammitində Ermənistanın baş nazirini terroru dəstəkləyən dövlət kimi növbəti dəfə faktlarla ifşa etmişdi. Ermənistanın baş naziri çıxışında koronavirusla mübarizə üçün ehtiyacların ödənilməsi məqsədilə Avropa İttifaqından 92 milyon avro həcmində yardım aldıqlarını qeyd edib. Azərbaycan Prezidenti isə çıxışında vurğulayıb ki, ölkəmiz pandemiya ilə mübarizə üçün Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar könüllü maliyyə yardımı ayırmaqla, eyni zamanda, 29 dövlətə humanitar yardım göstərib və bu işi davam etdirir. Bu, Azərbaycanla Ermənistan arasında bütün sahələrdə olduğu kimi, iqtisadi sahədə də müqayisə edilməyən nisbətin mövcudluğunun nümayiş etdirən əsaslı faktdır. Qeyd etmək lazımdır ki, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanı koronavirusla mübarizədə nümunə ölkə adlandırır, Azərbaycanın digər ölkələrə yardımını təqdir edir, Ermənistan isə virusla mübarizə üçün, sadəcə, məqsədli şəkildə pul dilənir və bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi".

Ş.Xanbabayev, bir daha onu da vurğulayıb ki, artıq ölkəmiz, xüsusilə Azərbaycan Prezidenti İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir: "İnanıram ki, Prezident İlham Əliyevin yeni təşəbbüsü həm amansız COVİD-19 pandemiyasına qarşı beynəlxalq mübarizənin daha səmərəli şəkildə təşkil edilməsində, həm də qlobal miqyasda əməkdaşlıq və həmrəyliyin möhkəmləndirilməsində yeni imkanlar yaradacaq. Bu təşəbbüs eyni zamanda, diplomatiya tariximizə ümumdünya problemlərinin həllinə Azərbaycanın yeni və əhəmiyyətli töhfəsi kimi daxil olacaq".

***RƏFİQƏ KAMALQIZI***

# Ermənistan hər gün daha çox inqilaba yaxınlaşır



"Ermənistanda pandemiya dövründə onsuz da mövcud olan iqtisadi və siyasi gərginlik daha da artıb və Ermənistan bu gün pandemiyanın yayıldığı ərazi baxımından qırmızı zona elan olunub. Bu da şübhəsiz ki, ölkə daxilində gərginliyi artıran yeni səbəblər yaradır. Xüsusilə də Paşinyan çox yaxşı bilir ki, etiraz dalğası 2018-ci ildəkin daha böyük ola bilər və o, öz sələfinin taleyini yaşaya bilər. Yəni, inqilab dalğası ilə hakimiyyətdən uzaqlaşa bilər". Bunu SİA-ya açıqlamasında Milli Məclisin üzvü, siyasi elmlər doktoru, professor Elman Nəsirov deyib.

Politoloq bildirib ki, bu günlərdə cənab prezident İlham Əliyevin Mingəçevirdə yeni hərbi hissənin açılışında qeyd etdiyi kimi Ermənistanda faktiki olaraq xunta rejimini diktatura rejimi əvəz edir və ideoloji baxımından indiki hakimiyyət, keçmiş hakimiyyətin siyasətini davam etdirir: "Bu diktatura rejimi özünü onda əks etdirir ki, bütün siyasi opponentlərə qarşı təzyiq və təqib siyasəti həyata keçirilir. Azad söz boğulur. Cənab İlham Əliyev bir jurnalisti misal gətirərək qeyd edib ki, o, Paşinyan rejimini tənqid etdiyinə görə həbs edilib, aclıq aksiyası keçirib və onun bu kompaniyasına heç kim diqqət yetirməyib. Nəticədə həmin jurnalist ölüb və dünya, beynəlxalq təşkilatlar da buna susub. Sanki Ermənistanda heçnə baş verməyib. Eyni zamanda Paşinyan partiya rəhbəri olan deputat Sarukyanın toxunulmazlıq hüququnun ləğvinə nail oldu. İndi Sarukyana və onun yaxın ətrafına cinayət işi açılır. Demək olar ki, bütün siyasi rəqiblərlə məhz təhdid dili ilə danışılır. Ermənistanın sabiq prezidenti Köçəryan da həbs edilmişdi. Yəqin ki, o da müvəqqəti olaraq azadlığa buraxılıb. Eyni zamanda Serj Sarkisyana qarşı cinayət işi açılıb".

Deputatın sözlərinə görə, ölkədə Paşinyan rejimi əleyhinə kimlər ki, əks mövqedə dayanıb, onların hər birinin yolu həbsxanada keçir: "Eyni zamanda yeganə qurum Konstitusiya məhkəməsidir ki, Paşinyana qarşı fərqli mövqedə idi və onun siyasətini tənqid edirdi. İndi də referendumla deyil, parlament yolu ilə Konstitusiya məhkəməsinə dəyişiklik etmək istəyir. Hansı ki, bu da tamamilə qanunaziddir və Ermənistan Konstitusiyasının pozulması deməkdir. Bütün bunlar onu göstərir ki, Paşinyan faktiki diktator kimi özünü aparır və çox gözəl dərk edir ki, onun hakimiyyətinin sonu yaxınlaşır və bunu hiss etdikcə onun diktatura ambisiyası daha da kəskinləşməkdədir. Yəni, hakimiyyətin hər üç qanadı onun əlindədir. Həm məhkəmə hakimiyyəti, həm qanunverici hakimiyyəti, həm də icra hakimiyyəti. Paşinyan özü həm hakimdir, həm də prokuror. Cənab Prezident onun fəaliyyətinə belə qiymət verdi".

E.Nəsirov vurğulayıb ki, belə olan halda post-pandemiya dövrünün Paşinyan üçün daha təhlükəli olacağı proqnozlaşdırılır: "Hazırki vəziyyətdə siyasi və iqtisadi katakilizmlərin labüd olacağı görünür. Çünki kasıb Ermənistanın iqtisadiyyatı pandemiya dövründə ümumiyyətlə çökür. Nəticə etibarilə Ermənistan hər gün daha çox inqilaba yaxınlaşır. İndidən erməni ekspertləri belə fikirlər söyləyirlər ki, inqilab daha qanlı inqilab ola bilər. Xarici siyasət isə bərbad vəziyyətdədir. Əsas müttəfiq hesab edilən Rusiya ilə çox gərgin münasibətlər yaşanır. Hətta Paşinyanın hakimiyyəti müddətində Rusiya prezidenti Valdimr Putinin bir dəfə də olsun Ermənistana rəsmi səfəri olmayıb. Bir dəfə işgüzar səfərdə olub, onda da Paşinyanın həbs etdirdiyi Köçəryanın xanımı ilə görüş keçirib. Bu isə onu təsdiq edir ki, bu gün Rusiyanın özündə Ermənistana münasibət olduqca pisdir. Bütün bu hadisələr fonunda Ermənistanda inqilabın baş verəcəyini proqnozlaşdırmaq prinsip etibarilə mümkündür".

***Aysel Məmmədova***

# "Artıq siyasi sistemin yeni konfiqurasiyası formalaşmışdır"

"VI çağırış Milli Məclisin rəhbər strukturlarının formalaşmasında, ənənəvi standartlardan kənar heç kimin gözləmədiyi halda müxalif siyasi partiyaların nümayəndələrinin təmsil olunması, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qanunvericilik orqanında apardığı köklü islahatların tərkib hissəsidir". Bunu SİA-ya millət vəkili Nəsib Məhəməliyev deyib.

Deputatın sözlərinə görə, bu gün parlamentdə 9 siyasi partiya fəaliyyət göstərir: "Cəmiyyətin müxtəlif təbəqələrini özündə əks etdirən bu partiyaların bir biri ilə dialoqunu təşkil etmək, onların dövlət idarəetmə sisteminə cəlb olunması, əhalini narahat edən problemlərin həll və ümummilli məsələlərdə dövlət mənafeyindən çıxış edilməsi baxımından koordinasiya olunması olduqca əhəmiyyətlidir. Bu kontekstdə Milli Məclisin sədri, hörmətli Sahibə xanım Qafarovanın və Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri hörmətli Ədalət Vəliyevin keçirdikləri videokonfransın əhəmiyyəti danılmazdır. Hər bir dövlətin inkişafının kökündə cəmiyyətin müxtəlif təbəqələri arasında formalaşdırılmış sivi dialoq mədəniyyəti durur. Təqdirəlayiq haldır ki, siyasi qüvvələr arasındakı dialoq mühiti təkcə qanunvericilik orqanda təmsil olunan partiyalarla deyil, parlamentdən kənar siyasi qüvvələrlə də aparılır. Bu da cəmiyyətin bütövləşməsinə, sosial gərginliyin aradan qaldırılmasına, vətəndaş cəmiyyəti institutlarının inkişafına xidmət edir. Bütün bunlar ölkəmizdə cənab Prezidentin əvvəlcədən elan etdiyi siyasi islahatlar kursunun davam etdirilməsinin nəticəsidir və demək olar ki, artıq siyasi sistemin yeni konfiqurasiyası formalaşmışdır. Koronovirus pandemiyasına görə, karantin rejiminin qaydalarına müvafiq olaraq, müəyyən məhdudlaşdırıcı şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq, demək olar ki, yeni siyasi sistem özünü tam doğrultdu. Hesab edirəm ki, siyasi partiyalarla hakimiyyətin hər iki qolu arasında müzakirələr davamlı olmalı, sistemli xarakter daşımalıdır. Azərbaycan dövlətçiliyinin qorunması, əhalini narahat edən məsələlərin vaxtında müəyyənləşdirilməsi, ölkə başçısının apardığı islahatların mahiyyətinin geniş kütlələrə çatdırılması baxımından da əhəmiyyətlidir".

# Baş Prokurorluq: Biləsuvarda qızını evdə zəncirləyən ata tutuldu

İyulun 9-da saat 21:00 radələrində Biləsuvar rayonu, Zəhmətabad kənd sakini Adil Həbiyevin yaşadıqları evdə qızını zəncirlə bağlı vəziyyətdə saxlaması, habelə onu döyüb işgəncə verməsi barədə daxil olmuş məlumat əsasında prokurorluq və polis əməkdaşları tərəfindən dərhal Adil Həbiyevin yaşadığı evə baxış keçirilərkən bədəni üzərində müxtəlif xəsarətlər olan Bağdagül Həbiyeva evin yataq otağında zəncirlə bağlı vəziyyətdə aşkar edilmişdir. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, araşdırmalarla 1970-ci il təvəllüdlü Adil Həbiyevin doğma qızı, 2013-cü ildən ailəsindən boşanaraq onunla birlikdə yaşayan, 1989-cu il təvəllüdlü Bağdagül Həbiyevanın yüngül həyat tərzi keçirməsindən şübhələndiyinə görə cari il aprelin 2-dən Biləsuvar rayonu, Zəhmətabad kəndində yerləşən yaşadıqları evin yataq otağında zəncirlə bağlayıb qanunsuz azadlıqdan məhrum edərək sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməsinə əsaslı şübhələr müəyyən edilmişdir. Faktla bağlı Biləsuvar rayon prokurorluğunda Cinayət Məcəlləsinin 145.2.5-ci (qanunsuz azadlıqdan məhrum etmə, zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə) maddəsi ilə cinayət işi başlanmışdır.

Prokurorluq və polis əməkdaşları tərəfindən həyata keçirilmiş istintaq və əməliyyat-axtarış tədbirləri nəticəsində Adil Həbiyev qeyd olunan cinayət əməlini törətməkdə şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilmişdir. İş üzrə hadisənin şahidləri müəyyənləşdirilərək dindirilmiş, müvafiq ekspertizalar təyin edilmiş və zəruri istintaq hərəkətləri keçirilmişdir. Hazırda iş üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# “Azərbaycanın yeni çağırışlarları, təşəbbüsləri dünyada yüksək qiymətləndirilir və dəstəklənir”

*Milli Məclisin deputatı Pərvin Kərimzadənin yap.org.az-a müsahibəsi*

***- Pərvin xanım ölkə Prezidenti İlham Əliyevin pandemiyaya qarşı mübarizənin beynəlxalq təşkilatlar səviyyəsində aparılmasının vacibliyini gündəmə gətirməsi COVID-19-a qarşı beynəlxalq mübarizəyə nə kimi töhfələr verəcək?***

- Azərbaycanın COVID-19 pandemiyasına qarşı mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi ilə bağlı yeni çağırışları, təşəbbüsləri, əməli addımları bütün dünyada yüksək qiymətləndirilir və dəstəklənir. Daim müasir dövrün çağırışlarına uyğun istər daxili, istərsə də xarici arenada strateji uğurlarını durmadan artıran Azərbaycan yer kürəsinə qara kabus kimi çökən pandemiya ilə mübarizədə bəşəri ideyalara sadiqliyini bir daha göstərdi. Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə “COVID-19-a qarşı birlikdəyik” mövzusunda videokonfrans formatında keçirilən Zirvə görüşü dünyasiya sətçilərinin əsas mövzusuna, kütləvi informasiya vasitələrinin manşet xəbərinə çevrildi. 120 üzv dövlətin yekdil dəstəyi ilə dünyanı çalxalayan koronavirus pandemiyası ilə mübarizəyə həsr olunan Zirvə görüşündə Prezident İlham Əliyev koronavirus pandemiyasının bütün dünya dövlətlərinə mənfi təsir göstərdiyin xatırladaraq, bu bəlanın və onun fəsadlarının aradan qaldırılması Hərəkata üzv dövlətlərin və bütün bəşəriyyətin qarşısında duran ən vacib problem olduğunu vurğuladı. Dünya birliyinin məsuliyyətli üzvü kimi Azərbaycan diqqəti COVID-19-a qalib gəlməyin mümkünlüyünə, ümumi evimizin-planetimizin üzərinə qara kabus kimi çökən bəlanın öhdəsindən qarşılıqlı dəstək və birgə səylərlə gəlməyin yollarına yönəltdi.

“Gözəgörünməz “düşmən”in - COVID-19- un topsuz-tüfəngsiz hücumlarına qarşı birgə tədbirlər görmək üçün Azərbaycan Prezidenti İlham Əliyevin BMT Baş Assambleyasının xüsusi sessiyasının çağırılması ilə əlaqədar təşəbbüsü beynəlxalq səviyyədə ictimai birliyin formalaşmasına, bütün üzv ölkələrin problemin həlli istiqamətlərində səyləri birləşdirməklə COVID-19-a qarşı mübarizədə birlik, həmrəylik nümayiş etdirməsinə mühüm töhfə olacaq.

***- Koronavirus pandemiyası ilə mübarizə məsələləri ilə bağlı BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun daha da artmasına necə təsir göstərəcək?***

- Ölkəmiz mütəmadi olaraq nüfuz-



lu beynəlxalq tədbirlərə müvəffəqiyyətlə ev sahibliyi edib, regional və qlobal əhəmiyyətli məsələlər, qlobal proseslər Azərbaycanda müzakirə obyektinə çevrilib.Belə ki, ölkəmiz öz təklif və təşəbbüsləri ilə sivilizasiyalararası dialoqun inkişafına, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə töhfələr verib. Bakı Beynəlxalq Humanitar Forumu, Mədəniyyətlərarası Dialoq Forumu, Dini Liderlərin Zirvə toplantısı, Qlobal Bakı Forumu kimi mühüm tədbirlər, Birinci Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər nüfuzlu yarışlar məhz beynəlxalq dialoq və əməkdaşlıq məkanı olan Azərbaycanda keçirilib.

Beynəlxalq müstəvidə qarşılıqlı anlaşma və əməkdaşlığa xidmət edən, sivilizasiyalararası dialoqun təşviqi və inkişafında yeni yanaşmaların, ideyaların meydana çıxmasına əlverişli zəmin yaradan tədbirlər Azərbaycanın beynəlxalq müstəvidə artan rolunun və yüksək nüfuzunun bariz nümunələrini təşkil edir.

Koronavirus pandemiyasının tüğyan etdiyi bu çətin dövrdə Azərbaycan Respublikasının Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının videokonfrans formatında xüsusi sessiyasının çağırılması barədə qərarının qəbul edilməsi ölkəmizin və onun Prezidentinin dünya birliyində hörmət və nüfuzunun bariz nümunəsin daha bir nümunəsi oldu. Dünyanın 130-dək dövlətinin yüksək səviyyədə Prezident İlham Əliyevin təşəbbüsünü yekdilliklə dəstəkləməsi isə beynəlxalq birliyin Azərbaycana, onun rəhbərinə olan böyük etimad və inam göstərməsindən irəli gəlir.

Ölkə Prezidentinin təşəbbüsü Azərbaycan dövlətinin ev sahibliyi etdiyi böyük bir təşkilatda qazandığı növbəti uğur oldu. Eyni zamanda dövlət başçısının bu siyasi addımı onun yüksək liderlik qabiliyyətinə malik olmasını bir daha nümayiş etdirdi.

Sözsüz ki, pandemiya əbədi deyil, tədricən zəifləyəcək, aradan çıxacaq. Dünya ölkələri bu amansız bəlaya qarşı həmrəy olmaqla, güclərini birləşdirməklə qalib gələcəklər. Azərbaycan dövləti isə dünyanı bürüyən COVID-19 bəlasından çıxış yollarını müzakirə etməkdə və həll yollarının tapılmasında öz töhfəsini verən dövlət kimi tarixdə qalacaq.

***- Ölkə Prezidenti İlham Əliyevin koronavirus pandemiyasına qarşı mübarizəyə həsr olunmuş BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi ilə bağlı təklifi 130 dövlət tərəfindən dəstəkləndi, Ermənistandan başqa...***

- Azərbaycan dövlətinin qlobal problemə çevrilən qorxunc virusa qarşı mübarizə tədbirlərində həmrəylik təşəbbüsündən narahat olan yeganə dövlət - mənfur qonşularımız oldu. Həmişə olduğu kimi, bu dəfə də mənfur qonşularımız öz məkrli siyasətindən, xudbin niyyətindən əl çəkmədi. ErmənistanAzərbaycana qarşı qərəzli mövqedə olduğunu bir daha göstərdi. Qoşulmama Hərakatı Cənubi Qafqazın bütün parametrlər baxımından lider dövləti statusunu inamla daşıyan Azərbaycanın ərazi bütövlüyünü birmənalı dəstəkləyən təşkilat olduğunu nəzərə alsaq Ermənistanın bu reaksiyası gözlənilənidi. Bütün dünya COVID-19-a qarşı mübarizədə qlobal həmrəyliyin vacibliyini vurğuladığı halda, Ermənistan qlobal xarakter daşıyan bu təşəbbüsə qarşı çıxış etməklə BMT sistemində və dünya dövlətləri arasında özünü rüsvay etdi. Bütün dünya bir daha Ermənistanın əsl irticaçı mahiyyətinin şahidi oldu.

## Məşhur Məmmədov: “Ermənistan pandemiya ilə mübarizədə çox geridə qalıb”



“Azərbaycan Prezidenti İlham Əliyev iyulun 6-da Bakının Xətai rayonunda Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronavirusla xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının açılışından sonra yerli televiziyalara verdiyi müsahibəsində ölkədaxili və beynəlxalq auditoriyaya hesablanmış bir çox vacib mesajlar verdi. Dövlətimizin başçısı müsahibədə mühüm bəyanatlar səsləndirdi”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Milli Məclisin deputatı Məşhur Məmmədov deyib.

M.Məmmədov bildirib ki, Prezident İlham Əliyevin müsahibəsinin əsas istiqamətləri pandemiya ilə mübarizə sahəsində görülən işlər və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Ermənistan rəhbərliyinin nümayiş etdirdiyi mövqe idi: “Cənab Prezident Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərə də geniş toxundu. Ermənistanın hazırkı mərhələdə əsas məqsədinin danışıqlar prosesini pozmaq olduğunu bildirdi. Bu məqsədlə müxtəlif təxribatlara əl atdığını, beynəlxalq təşkilatların bu məsələyə adekvat reaksiya vermədiyini qeyd etdi. Xüsusilə ATƏT-in Minsk qrupunun mövqeyini sərt tənqid etdi. Hər iki ölkəyə münasibətdə ikili standartlara yol verildiyini xüsusi vurğuladı. Azərbaycanla müqayisədə işğalçı Ermənistan pandemiya ilə mübarizədə müqayisəolunmaz dərəcədə geridə qalıb. Dövlətimizin başçısı həmçinin Azərbaycanla müqayisədə Ermənistanda pandemiya ilə mübarizə sahəsində vəziyyətin yaxşı olmadığını, bu ölkənin hazırda pandemiyadan ən çox əziyyət çəkən ölkələrdən biri olduğunu qeyd etdi. Buna təsir göstərən amillərdən biri də Ermənistanın uzun illərdir Azərbaycana qarşı nümayiş etdirdiyi aqressiyadır. Məhz bu səbəbdən Ermənistan bir çox regional layihələrdən kənarda qalıb”.

O qeyd edib ki, müəyyən dairələr Ermənistan haqqında “demokrat obrazı yaratmağa çalışır. Bu isə yolverilməzdir. Deputat söyləyib ki, Prezident İlham Əliyevin iyulun 6-da yerli televiziyalara müsahibəsində qeyd etdiyi kimi, Ermənistanda insan haqlarının və demokratiyanın pozulması bu günün işi deyil: “Dövlətimizin başçısı bildirib ki, Ermənistanda heç vaxt demokratiya olmayıb. Ermənistan hələ müstəqil ölkə kimi formalaşandan dərhal sonra öz əsl xislətini göstərdi. Xocalı soyqırımını törədən faşistlər demokrat ola bilməzlər. Başqasının torpağına göz dikən, bir milyon insanı evsiz-eşiksiz qoyan ölkə demokrat ola bilməz. Onlar bir milyon Azərbaycan vətəndaşının və Ermənistanda yaşayan azərbaycanlıların elementar insan haqlarını pozublar. Cənab Prezidentin qeyd etdiyi kimi, ermənilərə himayədarlıq edənlər, ilk növbədə, erməni lobbisi, onun pulları, ondan sonra Ermənistan hökumətinin Avropada çirkin lobbiçilik fəaliyyəti onları həmişə bu tənqiddən qoruyurdu. Əslində, bu, lobbiçilik fəaliyyəti deyil, bu, korrupsiya fəaliyyətidir”.

Millət vəkilinin sözlərinə görə, Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Ermənistanın BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi təşəbbüsünün əleyhinə səs verməsi bu ölkənin iç üzünü və mahiyyətini bir daha açdı. Əslində pandemiyadan ən çox zərər çəkən ölkələrdən biri kimi Ermənistan BMT Baş Assambleyasının keçirilməsində maraqlı olmalıydı. Bu qərəzli yanaşmanın kökündə bu ölkədə hökm sürən və dövlət tərəfindən təbliğ edilən Azərbaycanafobiyadır, Azərbaycan dövlətinə, Azərbaycan xalqına nifrətin təzahürüdür.

“Bu təşəbbüsü irəli sürməkdə Azərbaycanın məqsədi COVİD-19-la mübarizədə vahid yanaşmanın tətbiqinə, ölkələrin özlərinə qapanmamasına, inkişaf etmiş ölkələrin ağır vəziyyətdə olan ölkələrə kömək göstərməsinə nail olmaq idi. Bu təşəbbüsün reallaşması üçün 97 səs lazım olmuş, ancaq 130-dan çox ölkənin səsi əldə edilmişdi. Burada iki əsas məsələ öz rolunu göstərdi - bu mövzunun aktuallığı və beynəlxalq müstəvidə Azərbaycana olan dəstək və rəğbət. Azərbaycan bu rəğbəti uzun illər həyata keçirdiyi ardıcıl xarici siyasət hesabına, prinsipial, müstəqil mövqe sayəsində qazanıb. Bu, doqquz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçilən Azərbaycana yenidən verilən böyük beynəlxalq dəstəkdir, ölkəmizə olan inam və etimadın göstəricisidir”-deyə, M.Məmmədov qeyd edib. yap.org.az

**Ceyhun Rasimoğlu**

## Ermənistanda koronavirusa yoluxanların sayı 31 minə çatdı

Ermənistanda koronavirus xəstəliyinə yoluxmuş insanların sayı 31 minə yaxındır. SİA Ermənistana məxsus mətbuat səhifələrində yayımlanan məlumatrlara istinadən xəbər verir ki, ölkədə koronavirusdan ölənlərin sayı artıq 723 təşkil edib. Məlumatda qeyd olunur ki, 10 iyul tarixinə olan məlumata görə Ermənistanda koronavirus infeksiyası hallarının sayı 557 nəfər artaraq 30 903-ə çatıb. Həmçinin bildirilir ki, ölənlərin sayı da 18 nəfər artıb.

## Baş Prokurorluq KİV-ə xəbərdarlıq edir



Bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində hərbi xidmətdə olarkən Alazan çayında suda batması nəticəsində vəfat etmiş Quba rayonu Üçgün kənd sakini Fərdi Yarəliyevin meyiti üzərində guya zorakılıq əlamətlərinin aşkar olunması barədə yalan məlumatlar yayılıb. Baş Prokurorluqdan SİA-ya verilən məlumata görə, kütləvi informasiya vasitələri tərəfindən süni ajiotaj yaratmaq məqsədilə ictimaiyyətdə yanlış fikrin formalaşdırılmasına xidmət edən həmin məlumatlar həqiqəti əks etdirmədiyindən təkzib olunur.

Belə ki, Dövlət Sərhəd xidmətinin N saylı hərbi hissəsindən Zaqatala hərbi prokurorluğuna əsgər Yarəliyev Fərdi Namik oğlunun Alazan çayında suda bataraq ölməsi barədə daxil olmuş məlumat əsasında dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş, iş üçün əhəmiyyət kəsb edən predmetlər maddi sübut kimi götürülmüş, müvafiq ekspertizalar təyin edilmiş, şahidlər dindirilmiş və digər hərəkətlər icra edilmişdir. Fakt üzrə Zaqatala hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 342.1-1-ci (qulluğa səhlənkar yanaşma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanılaraq peşəkar prokurorluq əməkdaşlarından ibarət istintaq qrupu yaradılmış və təxirəsalınmaz zəruri istintaq hərəkətləri həyata keçirilir.

Mərhum Fərdi Yarəliyevin meyitinin xarici və daxili mayinəsi zamanı bədən səthində hər-hansı bir xəsarət və ya xəsarət izləri aşkar edilməmişdir. Hazırda cinayət işi üzrə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Azərbaycan Respublikasının Baş Prokurorluğu kütləvi informasiya vasitələrini həqiqətə uyğun olmayan məlumatları və dəqiqləşdirilməmiş informasiyaların yayılmaması barədə xəbərdarlıq edir.

# Ermənistanda SOS və Paşinyan hakimiyyətinin qorxusu




***Bir çox dünya ölkələri kimi Ermənistanı da koronavirus yaman yerdə yaxalayıb və gözdən pərdə asan Paşinyan hakimiyyətinin pərdəsini də, komuflyajını da dəlik-deşik edib. Doğrudur, koronavirus heç bir ölkədən yan keçməyib və hər bir sahəyə mənfi təsirləri də danılmazdır. Amma Azərbaycan kimi inkişaf yolunda olan, gücla iqtisadiyyata, imkanlara, maliyyə potensialına malik ölkələr bu xəstəliklə mübarizə əzmindədir və Ermənistan kimi virusun zəlil etdiyi ölkələrdən də fərq elə bundadır. Çünki, Ermənistan koronavirusun təsiri ilə sözün əsl mənasında iflic vəziyyətinə düşüb və bütün sahələrdə böhran göz qabağınadır.***

Çox maraqlıdır, Nikol Paşinyan və onun hakimiyyət komandası mövcud durumu görmür, yoxsa özünü görməməzliyə vurur? Tutaq ki, Ermənistanın mövcud hakimiyyəti vətəndaşların virusa yoluxmasına bir don geyindirə bilir və bunu pandemiya, qlobal belə kimi əsaslandırır. Bəs sual oluna bilər ki, bu qədər iflas, bu qədər geriləmənin, bu böyda məhv sürətinin cavabdehi də koronavirus olacaqmı? On minlərlə müəssisənin bağlanma ərəfəsində olması, nəticədə, ifrat dərəcədə işsizlik problemi, işsizlər ordusu küçədən gələn bu hakimiyyət komandasını düşündürmürmü? Ermənistanın Nikol Paşinyan kimi hiyləgər bir beli çantalı baş naziri öz komandası ilə birgə dərk etmirmi ki, bu işsizlər ordusu onun üçün nə deməkdir? Axı küçədən gələn qaraguruhçu bir baş nazir və özü ilə küçədən gətirdiyi beli çantalılar narazıların küçədə toplaşmasının hamıdan çox fərqində olmalı idi.

Bəllidir ki, Ermənistanda yel əsib qoz tökülməmişdi və illər bundan öncə də ölkə iqtisadi potensialdan məhrum olub, işsizlik problem olaraq mövcud idi. Amma Paşinyan və onun keçmiş hakimiyyət nümayəndələrini düşmən bələyən və ovuna çıxan komandası anlamalıdır ki, bu zamana qədər işsiz ermənilər Rusiyaya üz tutur, qazanc dalınca ölkələrini tərk edirdi deyə onların başları çox ağrımırdı. Bir növ, Rusiya bu mənada da Ermənistanı bilərəkdən, yaxud bilməyərəkdən vəziyyətdən çıxarırdı. İndi isə vəziyyət tamamilə fərqlidir və pandemiya səbəbindən, ölkədən çıxış məhdudlaşdırıldığından işsiz ermənilər Rusiyanın ucsuz-bucaqsız torpaqlarına səpələnə və bir növ narazılar ordusu ölkədən uzaqlaşdırıla bilməyəcək. Ermənistan hakimiyyəti bu dəfə həmin o narazıları yerbəyer etmək məcburiyyətindədir, əgər buna hünəri, imkanı və potensialı çatarsa, təbii ki...

Digər tərəfdən də işsizlər bir yana, büdcədən əmək haqqı alanların da vəziyyəti barədə nikbin proqnozlar söyləmək olmaz axı. Sörüşmaq ayıb olmasın, müvəqqəti mövcudluğu, xəstəliklə mübarizə üçün xaricdən yardım dilənən Ermənistan hakimiyyəti işçilərinə əmək haqlarını hansı hesabdab ödəyəcək? İşsizlərdən qabaq elə büdcədən maaş alanlar bu hakimiyyətin boğazına çökmək üçün kifayət edəcək. Təsəvvür edəndə ki, büdcədən əmək haqlarını almayanlar küçələrə doluşur və Paşinyandan hesab sorurlar Ermənistanın nə halda olacağı bəlli olur. Bu zaman heç şübhəsiz ki, Nikol əmək haqsız, ac qalan ermənilərə pafoslu nitqini, polulist çıxışını, yalançı vədlərini yedizdirə bilməyəcək.

Bəlkə də bir çoxları elə zənn edirlər ki, bu vəziyyətin təhlükəsi və fəlakəti erməni baş nazirin ağlına belə gəlmir. Amma heç də elə olana oxşamır. Elə olsaydı bu barədə SOS həyəcan siqnalı çalan Sarukyanı susdurmaq üçün onun həbsini gündəmə gətirməzdi Paşinyan və onun komandası. Bu həbs ona görə tələm-tələsik ortalığa atılıb ki, Sarukyan bütün bu faktları açıq-aşkar sadalayır və insanları bir az da tez ayıldırdı ki, bu da Nikola da, onun beli çantalı komandasına da sərf edən ola bilməz. Amma Sarukyan da vaxtında çox gözəl bir mesaj verib bu küçə nümayişçilərinin hakimiyyəti komandasına ki, ay bədbəxtlər, onun özündən yox, yüz minlərlə işini və ümidini itirənlər ordusundan qorxsunlar. Sarukyan bu sözləri ölkədəki vəziyyət və üzünün ətrafındakı proseslərlə bağlı açıqlama verdiyi zaman bəyan edib. Bəyan edib ki, ondan deyil, bir uşağa yemək, geyim və dərman üçün pulu olmayan valideynlərdən, banklara olan borc üzündən yüz minlərlə insanın ev itirməsindən, ümidini itirmiş, dolanışığı olmayan və on minlərlə iflasa uğrayan kiçik və orta sahibkardan qorxmaq lazımdır. Sarukyan xəbərdarlıq etməyi də unutmayıb və xatırladıb ki, bu, mövcud hakimiyyət üçün həqiqətən də çox qorxunc olacaq.

Sosial böhran astanasında olan hər hansı bir normal, ən azından anormal olmayan hökumət Sarukyanın həbsinə sanksiya verərək bütün bu tamaşaları nümayiş etdirərək xalq üçün şou təşkil etməkdənsə, Sarukyanın özünün belə mövcud imkanlarını və əlaqələrini dövlət naminə istifadə edərək sadalanan insanlar üçün istifadə etməyə çalışardı. İndi bütün dünyadakı qüvvələr cəmləşdirilir, bu vaxta qədər mövcud olmayan imkanlar yaradılır. Amma bunlar, bu küçə nümayişçilərinin hakimiyyət komandası özləri də mövcud imkanları məhv edir, vəziyyəti daha da dərinləşdirirlər.

Ermənistan dövləti payız əkinə hazırlaşmaq üçün nə edir? Əslində, demək olar ki, heç nə etmir. Çünki, bütün diqqətini düşmən axtarışına, intiqama, həbslərə, demokratiya pərdəsi altında zorakılığa, repressiyaya cəmləyib. Axı pandemiya ilə yanaşı, bütün ölkələrdə ərzaq təhlükəsizliyi problemi danılmazdır və Ermənistan bu problemin öhdəsindən necə gələ bilər və nəyə ümiddir? Yenə də dilənməyəmi və görəsən, payız əkinini onlar üçün diləndiyi ölkələr edəcək? Payız əkini uğursuz olsa, bu çarəsiz ölkədə yemək üçün heç bir şey olmayacaq axı. Bir neçə gündən sonra üzüm yığımı da başlayır, amma yeganə ümid yeri üzümlə bağlı sənaye olan bu işğalçı ölkədə şərab və konyak istehsalı da 60-70 faizə enib. Məhsul zavodların nə məhsul müqabilində pulu, nə də yeni məhsul istehsalı üçün yeri yoxdur. Ermənistan hakimiyyəti guya bütün bunların sosial gərginliyə səbəb olacağını başa düşmürmü? Başa düşmürmü ki, Ermənistanda SOS həyəcan siqnalı artıq çoxdan çalınır?

Bəlkə Paşinyan hakimiyyətinin qorxu içərisində olduğunu kimsə təkzib edə bilər? İndi həyəcan siqnalını doğuran bütün bu məqamları sadalayan Sarukyanın həbs qərarı belə təsadüfi deyil. Bu əslində Ermənistan hakimiyyətinin qorxusunun təzahürüdür. Əbəs yerə deyil ki, Sarikyan, "məndən yox, işini, ümidi itirənlərdən qorxun" deyə bəyan edib. Çünki, Sarukyan özü də, Paşinyan hakimiyyəti qədər bilir ki, Ermənistanın mövcud hakimiyyəti qorxu içərisindədir və bir qədər də elə onun özündən qorxur.

***İnam Hacıyev***

## ABŞ-lı mütəxəssis Ermənistana kömək edəcək?

ABŞ Dövlət Departamenti Ermənistan hökumətinə korrupsiyaya qarşı mübarizədə kömək etmək üçün bir mütəxəssis işə götürmək niyyətindədir.



SİA-nın məlumatına görə, işə götürüləcək şəxs Ermənistanın Ədliyyə Nazirliyi ilə əməkdaşlıq edəcək və islahatların təbliğinə öz töhfəsini verəcək. "Mütəxəssis yeni antikorrupsiya orqanlarının yaradılmasında Ermənistan hökumətinə dəstək verəcək və səmərəliliyini artıracaq. Bu qurumlar korrupsiya hallarını araşdıracaq və korrupsioner vəzifəli şəxsləri məsuliyyətə cəlb edəcəklər", - məlumatda qeyd edilib.

Bundan əlavə, mütəxəssis Ermənistan hakimiyyət orqanlarına hüquq-mühafizə islahatlarının inkişafı və həyata keçirilməsi barədə məsləhət verməlidir. Ədliyyə Nazirliyi və digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqə quracaq. Məsləhətçi, həmçinin araşdırmaçılar üçün təlimlər təşkil edəcək və Vaşinqton tərəfindən maliyyələşdirilən layihələri idarə edəcək. Bu vəzifəyə yalnız Amerika vətəndaşları müraciət edə bilər.

## Anar Xəlilov: "Cəmil Həsənli tarixçidi yaxşı bilir ki Rəsulzadə hara Kərimli hara"



"Milli Şura"nın növbəti vidiokonfransında şuranın üzvü Məmməd Rahim Əli Kərimlini "zəmanənin Rəsulzadəsi" kimi təqdim edib. Amma Cəmil Həsənli onu təxribatda günahlandırıb. Zamanında liderinə xəyanət etmiş Əli Kərimlini bu cür təqdim edilməsi siyasi riyakarlığın daha bir təzahürü hesab etmək olar? Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov "Səs" qəzetinə açıqlamasında bildirdi ki, Məmməd Əmin Rəsulzadə həyatı mübarizə ilə keçmiş bir şəxsiyyətdir: "Müəyyən ziddiyyətlər də olsa tarixi şəxsiyyət və dövrünün siyasi xadimidir. Onu bu gün Əli Kərimli ilə müqayisə etmək absurddur həm də gülünc. Bunların artıq xalqa deyəsi sözləri qalmayıb. Başlayıblar bir-birini ucuz tərifləməyə".

Təşkilat sədri onu da bildirdi ki, Əli Kərimli Məmməd Əmin Rəsulzadə ola bilməz: "Əgər onların öz xalqına az da olsa hörmətləri varsa bu cür müqayisə aparıb Rəsulzadə kimi insanları hörmətdən salmasınlar. Hər kəsin öz adı var. Əli Kərimli öz mənsub olduğu partiyanın və liderinin yolunu gedə bilməyib. Partiya on yerə parçalanıb. İntriqa və qaraguruhdan başqa heç nə ilə yadda qalmayan bu insanlar ömrünün axırına kimi mühacirətə Azərbaycan davası etmiş insanların ruhuna hörmətsizlik etməsinlər. Siyasi məğlubiyyətlərin mədhiyyələrlə ört basdır etməkdənsə Rəsulzadə kimi insanların mübarizə tarixlərini oxuyub öyrənsələr daha yaxşı olar. Cəmil Həsənli tarixçidi yaxşı bilir ki Rəsulzadə hara Kərimli hara".

***Gülyana***

## Avropa sərt rejimə keçir

*İtaliya Ermənistan da daxil olmaqla 13 ölkə vətəndaşlarına qadağa qoydu*

Koronavirusa yoluxdurma təhlükəsinə görə, İtaliya hökuməti 13 ölkə vətəndaşlarının bu ölkəyə girişini müvəqqəti qadağan edib. SİA xəbər verir ki, bu barədə euronews yazır. Bu ölkələr sırasında Ermənistan, Bəhreyn, Braziliya, Bosniya və Hersoqovina da var. Eyni zamanda, son iki həftədə bu ölkələrdə olan italyanlara da 14 günlük karantin rejimi tətbiq olunacaq.

### Rumıniya pandemiyanın ikinci dalğasında olduğunu bildirib

Rumıniyada da yoluxma hallarının artmasından narahatdırlar. Belə ki, son sutka ərzində 600 nəfər infeksiyaya yoluxub. Hökumət vətəndaşları tələb edilən qaydalara riayət etməyə çağırıb. Səhiyyə nazirliyindən isə bildirirlər ki, ölkə pandemiyanın ikinci dalğasını yaşayır. Fövqəladə halın yenidən bərpa olunması barədə söhbətlər getməsə də, onun tətbiq ediləcəyi də istisna olunmur.

### İspaniya, Fransa və Yunanıstan da sərt rejimə keçirlər

İspaniyanın Balear adaları hökuməti qoruyucu maskalardan istifadəni məcburi edib və bu qayda bütövlükdə muxtar ictimaiyyətinə adi olunub. Hazırda adalarda 9 infeksiya ocağı aşkar edilib. Səhiyyə xidmətindən bildirilib ki, həmin ocaqlar nəzarət altındadırlar.

Fransa və Yunanıstanda isə hökumətlər bəyan ediblər ki, insanlar sanitar təhlükəsizliklərə riayət etməyə meylli deyillər. Yunanıstanın bir sıra ölkələrlə olan açıq aviaəlaqələrindən sonra koronavirusun idxal yolu ilə yoluxması halları qeydə alınıb. Rəsmi Afina artıq gələn həftənin ilk iş günündən yeni və sərt məhdudiyyət ölçülər tətbiq edəcəyini açıqlayıb.

***Rövşən RƏSULOV***

# Dağlıq Qarabağ və ona bitişik ərazilərdə ermənilərin ekoloji terroru

***Dağlıq Qarabağ və ona bitişik ərazilərin özünəməxsus, təkrarolunmaz təbiəti vardır. Belə ki, uzun illər ərzində burada baş verən təbii və fiziki proseslər mövcud təbii amillərlə birləşərək rəngarəng fauna və flora müxtəlifliyini, onların vəhdətini yaratmışdır. Təbii şərait vətəbii komponentlərin vəhdəti aran və dağlıq ərazilərin birgə, qarşılıqlı ahəngdar mübadilədə olan mövcud ekoloji sistemini təşkil edir.***

Azərbaycanın meşə ehtiyatlarının əsasını ermənilər tərəfindən işğal olunmuş ərazilərin meşə fondu tutur. Kütləvi şəkildə məhv edilən meşələrin min illər ərzində formalaşmış ekosisteminin məhvi bəşəriyyət və onun mövcudluğunu təmin edən təbiətə qarşı ermənilər tərəfindən törədilən ən böyük cinayətdir. Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan Respublikasının ərazilərində qızıl ehtiyatlarından sonra ən çox talanan sərvətlər meşələrdir. Belə ki, Ermənistandan və xaricdən axın edən ermənilər Kəlbəcər, Laçın, Qubadlı və digər bölgələrdən qiymətli ağac növlərini kütləvi şəkildə qıraraq yarımfabrikat şəklində xarici ölkələrə satırlar. Ermənilər meşələrin qırılaraq məhv edilməsinə hələ 1989-cu ildən başlamışlar. Ermənistanın işğalı altında olan meşələrimizdə 460-dan çox yabanı ağac və kol növləri bitir ki, bunların da 70-i endemik növlərdir və dünyanın heç yerində təbii halda bitmir. Təbii sərvətlərin ən maraqlı və mühüm tərkib hissəsi kimi qiymətləndirilən, öz bənzərsiz və diqqətə layiq zahiri görünüşü ilə nəzəri cəlb edən mühüm estetik, elmi və əməli əhəmiyyətə malik təbiət abidələri xüsusi əhəmiyyət kəsb edir. Onlar Yerin dərinliklərində və səthində müxtəlif vaxtlarda baş verən təbii hadisələrin canlı şahidləri olmaqla Yerin inkişaf tarixinin öyrənilməsində mühüm informasiya daşıyıcısı rolunu oynayır. Azərbaycan Respublikasının erməni silahlıları tərəfindən işğal edilmiş ərazilərində hündürlüyü 45 metr, diametri 6-8 metrədək, yaşı 120 ildən 2000 ilədək olan pasportlaşdırılmış 145 Şərq çinarı, 3 dağdağan, 1 azat ağacı, 1 armud, 1 palıd və 1 saqqız ağacından ibarət 152 ədəd təbiət abidəsi olan pasportlaşdırılmış ağaclar qalmışdır. Azərbaycanın 20 000 növə qədər canlıdan ibarət fauna biomüxtəlifliyi 100 növ və yarımnöv məməli, 357 növ və yarımnöv quş, 124-ə yaxın növ və yarımnöv balıq (bunların 40-dan çoxu sənaye əhəmiyyətlidir), 67 növ və yarımnöv suda-quruda yaşayanlar və sürünənlər, 350 növ xərçəng kimilər, 15 min növə yaxın cücülərdən ibarətdir. Erməni silahlı qüvvə-ləri tərəfindən işğal olunmuş 20%-dən çox zəngin faunası ilə seçilən torpaqlarımızda Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na düşmüş məməlilərin 4, quşların 8, balıqların 1, amfi-biya və reptillilərin 3, həşaratların 8, bitkilərin isə 27 növü, hazırda ermənilərin istifadə etdikləri əkin sahələrindən başqa bütün əkinə yararlı torpaqlar məhv edilmişdir.

Erməni işğalçılarının zəbt etdiyi rayonların ərazisində sünbülqıranlar və gəmiricilər həddən artıq çoxalmışdır. Əkilib-becərilməyən torpaqlarda yabanı bitkilər artdığından vəhşi heyvanlar, ilan, siçan, siçovul kimi gəmiricilər, ziyanverici həşəratlar həddən artıq çoxalmışdır və onlar ətraf ərazilərə, o cümlədən qonşu rayonların ərazilərinə yayılaraq təsərrüfatlara böyük ziyan vururlar. İşğal altında olan nəzarətsiz ərazilərdə bəşəriyyət üçün təhlükə mənbələrindən biri olan Metsamor AES-in radioaktiv tullantıları basdırılır, həmçinin narkotik bitkilər yetişdirilir və onların məhsulları gizli yollarla xarici ölkələrə ötürülür.

Qarsdan 100 km, İqdırdanisə 10 kilometr uzaqlıqda yerləşən, keçən əsrin 70-ci illərin texnologiyası əsasında inşa edilərək 1979-cu ildə istifadəyə verilmiş, 1988-ci il zəlzələsindən sonra ziyan dəyərək bağlanmış, 1995-ci ildən isə tam gücü ilə olmasa da, yenidən fəaliyyətə başlamış Metsamor AES bütövlükdə regionun ekologiyasını zəhərləyən infrastrukturdur. Onun təhlükəsizlik baxımından əsas problemi yerləşdiyi məkan və qəzalı vəziyyətdə olmasıdır. "Mestamor" Atom Elektrik Stansiyasının (AES) fəaliyyətini davam etdirməsi region üçün ciddi təhlükə törədir. Bu barədə millət vəkili, professor Musa Qasımlı "Metsamor"un istismar müddətinin uzadılmasına münasibət bildirərkən deyib.

M.Qasımlı qeyd edib ki, bu AES köhnə texnologiyalarla tikilib və öz istismar müddətini başa vurub: "Burada texniki qəzaların baş vermə mümkünlüyü yüksəkdir. Əgər hər hansı bir qəza olsa, region radiaktiv şüalanmaya məruz qala bilər". Millət vəkilinin sözlərinə görə, digər tərəfdən, Ermənistan aktiv seysmik zonada yerləşir: "Əgər güclü zəlzələ olsa və atom elektrik stansiyası zədələnsə, bu, böyük bir faciəyə də yol aça bilər".

O bildirib ki, məsələnin başqa tərəfi də var: "Onun biri Araz çayına çirkli maddələrin axıdılmasıdır. Uzun illər boyu Azərbaycan bir sıra beynəlxalq təşkilatlarda Araz ayının çirkləndirilməsi, o cümlədən radiaktiv tullantılarla çirkləndirilməsi ilə bağlı ehtimalların çox olduğunu bildirir".

Millət vəkili əlavə edib ki, Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda və ətraf rayonlarda zərəli maddələrin basdırılması ehtimalı var: "Həmin ərazilər nəzarətsiz ərazilərdir və Ermənistan tərəfi həmin ərazilərdə radiaktiv tullantıları basdıra bilər". M.Qasımlı vurğulayıb ki, Ermənistan bir dövlət olaraq nüvə təhlükəsizliyinin qorunmasına yardım etmir, əksinə, buna təhdiddir.

Son 200 ilərzində Qafqazda baş vermiş15-dən çox katastro-fik vədağıdıcı zəlzələlərin nəticəsində 200 mindən artıq insan həyatını itirmiş, böyük maddi itkilər əmələ gəlmişdir. Dünyanının təhlükəli 5 nüvə stansiyasından biri sayılan Metsamor AES-dən radiasiya sızması ilə bağlı aparılan araşdırmalar sübut edib ki, həqiqətən də həmin stansiyadan insan sağlamlığını təhdid edən səviyyədə ətrafa nüvə axını vardır. Təbiət və təbii sərvətlərə mənfi münasibət XX əsrdə daha da artaraq ən yüksək həddə çatmışdır və bunun nəticəsində ətraf mühitin biotik (canlı) və abiotik (cansız) amilləri güclü antropogen təsirə məruz qalmış, bir çox bitki və heyvan növləri (biotlar) məhv olmuş və ya kökü kəsilmiş, bəziləri isə məhv olmaq ərəfəsində olduğundan "Qırmızı kitab"lara düşmüşdür. Bu proses yenə də davam edir. Statistikaya görə Yer kürəsində əvvəllər hər 100 ildə yalnız bir növ biot məhv olurdusa, hazırda 1 saat ərzində 50 növ məhv olur. Müharibə təkcə insanlar üçün deyil, həm də təbiət üçün öldürücü bir amildir. Müharibələrin ətraf mühitə təsiri insanın təbiətə təsirinin güclü və ən çirkin formasıdır. Ermənistanın işğalı altında olan ərazilərdə vahid ekosistemin dağılma prosesinin getməsi və bu prosesin beynəlxalq ekoloji təşkilatların nəzarətindən kənarda qalması bölgədə böyük fəlakətin başlanğıcını qoymuşdur. Ekoloji problemlər dünyanın hər yerində qlobal məsələ kimi müzakirə olunur və həyəcan təbili çalınır. İşğal olunmuş Azərbaycan ərazilərində erməni işğalçılarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının Baş Katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın İcraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin Prezidentinə rəsmi müraciətlər edilmiş, beynəlxalq təşkilatların diqqətinə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi çatdırılmışdır. Hazırda ətraf mühitin mühafizəsinin müxtəlif aspektlərinə dair 500-ə qədər beynəlxalq saziş mövcuddur. Ancaq beynəlxalq təşkilatlar ermənilərin Azərbaycan təbiətinə vurduğu ziyanın qarşısını almaq üçün nəinki ciddi işlər görür, əksinə buna göz yumurlar. Azərbaycan Respublikasının işğal altındakı ərazi-lərindəki təbii sərvətlərimizin talanmasının qarşısının alınması üçün əsasən diplomatik kanallardan istifadə edilir ki, bu da çox yüksək effektli deyildir. Belə ki, Azərbaycan tərəfindən hansısa xarici ölkədə qeydiyyatdan keçmiş şirkətin işğal edilmiş bölgələrdə fəaliyyəti qeydə alındıqdan sonra həmin ölkəyə verilən notaya cavab olaraq bildirilir ki, söhbət özəl şirkətdən getdiyi üçün onların fəaliyyətinə müdaxilə etmək mümkün deyildir. Odur ki, işğal edilmiş ərazilərdə talançılıq fəaliyyəti göstərən şirkətlərlə bağlı sübutlar toplanılmalı və Azərbaycana vurulmuş zərərlərin məbləğini müəyyən etməklə beynəlxalq məhkəmə instansiyalarına müraciət edilməlidir. Ermənistanın Azərbaycanın ətraf mühit və təbii sərvətlərinə vurduğu zərərlərin hesablanması olduqca vacibdir və erməni silahlı qüvvələrinin işğalı nəticəsində məruz qalınan itki və tələfatların qiymətləndirilməsi üzrə 9 İşçi Qrupu Azərbaycan Respublikasına dəymiş yekun zərərlərin müəyyənləşdirilməsi üçün müvafiq dövlət qurumları ilə




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

birlikdə ciddi səylə çalışır. Bu olduqca çətin və şərəfli bir işdir və ciddi uğurların əldə olunması üçün hər bir kəsin bilik və bacarığını səfərbər etməsi gərəkdir. Ətraf mühit və təbii sərvətlərə vurulmuş zərərə görə Ermənistan tərəfi kompensasiya ödəməyə borcludur.

Belə ki, beynəlxalq hüquqa əsasən zərər çəkmiş dövlətə dəymiş real ekoloji zərərlərə görə kompensasiyanın ödənilməsi zəruri hesab olunur. Nəzərə almaq lazımdır ki, dövlətlərin məsuliyyəti haqqında "Beynəlxalq hüquqazidd əməllərə görə dövlətlərin məsuliyyəti" Konsepsiyasinin 36-cı maddəsinə aid şərhin 15-ci bəndində qeyd olunur ki, miqdar cəhətdən hesablanması çətin olsa da hərdən "utilitar əhəmiyyət daşımayan dəyərlər" adlanan bioloji rəngarənglik, təbii landşaftın gözəlliyi və s. kimi ekoloji dəyərlərə vurulmuş faktiki zərər heç də əmlaka vurulmuş zərədən az real deyildir və bu zərər təcavüzkar tərəfindən ödənilməlidir.

Ramil CƏBRAYIL. "Qarabağın sərvətlərinə və ekologiyasına vurulan zərərlərin son hesabatı" mövzusunda tədbir. http://lacin.info/xeber/xmanset/2582-facebook-google-myspace

Beynəlxalq hüquqda bu sahəyə aid normaların formalaşması və inkişafı Küveytə qarşı təcavüz nəticəsində vurulmuş zərərin İraq tərəfindən ödənilməsinə dair məsələlərin həllində BMT Təhlükəsizlik Şurasının və BMT Kompensasiya Komissiyasının fəaliyyəti ilə bağlıdır. Belə ki, BMT Təhlükəsizlik Şurasının 3 aprel 1991-ci il tarixli 687 saylı qətnaməsinin 16-cı bəndində qeyd edilir ki, Küveytə hüquqazidd təcavüz və onun işğalı nəti-cəsində meydana gəlmiş bütün itkilərə, o cümlədən ətraf mühitə vurulmuş zərərə və təbii resursların azalmasına görə beynəlxalq hüquq üzrə İraq dövləti məsuliyyət daşıyır.

Bu qətnaməyə əsasən BMT-nin Kompensasiya komissiyası konkret olaraq, "ətraf mühitə vurulmuş zərər və təbii resursların azalması" anlayışlarını əhatə edən zərərin müxtəlif növlərini göstərdi. Azərbaycan dövləti işğal edilmiş ərazilərin sülh yolu ilə azad olunması və işğalın nəticələrinin aradan qaldırılması üçün bütün sferalarda fəallıq göstərsə də Ermənistanda hakimiyyətdə olan faşist rejim və himayədarları işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasına mane olurlar. Amma özlərini və Ermənistanı ağır duruma salan bu mənfur rejim bilməlidir ki, əslində torpaqlarımızdan çıxmadıqca Ermənistanı daha da ağır fəlakətlərə sürükləyirlər. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin dediyi kimi - "... Ermənistanın havadarları - onlara ən çox dəstək verən dairələr, xarici olkələrin dairələri, o cümlədən erməni diasporu - onlar başa düşməlidirlər ki, bu gün Ermənistan üçün çox böyük problem yarana bilər. Əgər o, öz öhdəliyini yerinə yetirməsə, əgər beynəlxalq təşkilatların qərarlarını icra etməsə, torpaqlarımızı boşaltmasa, onların axırı çox ağır ola bilər...".

***Vahid Ömərov,***
***Fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

SƏS

11 iyul

Son səhifə

# Fahriye Evcenin 700 manatlıq libası



Türkiyəli aktrisa Fahriye Evcen reklam şirkətlərinin biri üçün fotokamera önünə keçib. SİA-nın məlumatına görə, aktrisa yeni şəkillər çəkdirib. Evcen sözügedən şəkilləri sosial media hesabında yayımlayıb. Onun fotolardakı qara rəngli libaslı diqqətdən yayınmayıb. İzləyicilər Fahriyenin paltarının qiymıti ilə maraqlanıblar. Araşdırmamız zamanı bəlli olub ki, aktrisanın libasının dəyəri 700 manatdır.

# Ronaldo: “Bu, karyeramdakı ən vacib titul idi”



***“Yuventus”un portuqaliyalı ulduz futbolçusu Kriştiano Ronaldo Portuqaliya millisi ilə 4 il əvvəl Avropa çempionatının qalibi olmalarını xatırladıb. Qol.az xəbər verir ki, o, bununla bağlı “İnstaqram” səhifəsində yazıb: “4 il əvvəl bu gün tarixi və bənzərsiz gün yaşadıq. Bu, şübhəsiz ki, mənim karyeramdakı ən vacib titul idi”.***

Qeyd dək ki, Portuqaliya millisi 2016-cı il iyulun 10-u Fransaya 1:0 hesabı ilə qalib gələrək Avropa çempionatının kubokunun qazanmışdı.

# Roy Kin AFFA-dan çox pul istəyib

AFFA İcraiyyə Komitəsinin bugünkü iclasında Roy Kinin Azərbaycan millisinin baş məşqçi postuna namizədliyi məsələsi üzərində ciddi müzakirə getməyib. Bu barədə milli assosiasiyanın vitse-prezidenti və İcraiyyə Komitəsinin üzvü Vaqif Sadıqov məlumat verib. Onun sözlərinə görə, səbəb irlandiyalı mütəxəssisin irəli sürdüyü şərtlər olub: “Kinin həm maliyyə tələbi yüksək idi, həm də o, Azərbaycana yalnız yığmanın toplanışından-toplanışınadək gəlmək istəyirdi. Yəni Bakıda qalmaq niyyətində deyildi. Bu səbəbdən onun məsələsi çox da müzakirə olunmadı”. V.Sadıqov bildirib ki, millinin yeni baş məşqçisi seçimi italiyalı Canni De Byazi ilə yerli mütəxəssis Arif Əsədov arasında aparılıb. İcraiyyə Komitəsi üzvlərindən 8-i De Byazinin, 5-i isə Arif Əsədovun lehinə səs verib

# Yasamalda soyğunçuluq edən şəxs saxlanıldı

Soyğunçuluq etməkdə şübhəli bilinən paytaxt sakini Z.Aslanov saxlanılıb. Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, iyulun 9-da saat 11 radələrində Yasamal rayonunun Ş.Mehdiyev küçəsində bir nəfər Bakı şəhər sakini Q.Kərimovanın içərisində 294 manat pulu olan çantasını soyğunçuluq yolu ilə alıb. Həmin şəxs ərazidə xidmət aparan Post-Patrul Xidməti Bölüyünun əməkdaşları tərəfindən saxlanılaraq 27-ci Polis Bölməsinə təhvil verilib. Araşdırmalarla onun paytaxt sakini, əvvəllər məhkum olunmuş Z.Aslanov olması müəyyən edilib. Yasamal RPİ-də araşdırma aparılır.



# İsti havalarda kondinsionersiz sərinləməyin 7 YOLU

Bir çoxları yayın qızmar günlərində dənizə üz tutur, yaxud bölgələrdə istirahət edir. Əlacı olmayanlar isə təsəllini kondisionerin verdiyi soyuq havada tapır. Nəzərə alsaq ki, hazırda sərt karantin rejiminə əməl edərək evimizdən çıxa bilmirik, o zaman evdə sərinləməyin qaydalarını bilməliyik. Həkimlər deyir ki, kondisioner işləyən otaqda uzun müddət qalmaq orqanizmdə fəsadlara yol açır. Amma çoxu kondinsineri cıxış yolu kimi görür. Beləliklə, sizə isti havalarda sərinləməyin 7 yolunu açıqlayırıq:

**Evi qaranlıq saxlayın**

Pərdələri, jalüzləri gecədən endirin. Evə düşən gün işığı içəridə “parnik effekti” yaradır. Əgər bunun qarşısını alsaz, ev istidən yanmaz, kifayət qədər normal temperatur olar.

**Evi gecədən soyudun**

Bütün gecə boyu pəncərələri açıq qoyun, qapıları torlu qapı ilə əvəz edin. Sərin gecə havası evi soyudur və bu temperatur gündüz də normada qalır. Xüsusən yelçəkənli evlərdə bu əla effekt verir. Bina evində yaşayanlar dəhlizə bloka açılan qapını da axşam 1-2 saatlıq aralı qoysa, ev kifayət qədər nəfəs alacaq.

**Gen, boş, açıq rəngli geyimlər seçin**

İsti yay günləri cins, qara şalvar, dar geyimlər, tünd rənglər sizi çox tərlədəcək. Sintetikanı unudun. Təbii pambıq, kətan, krujeva, ipək material seçin. Çalışın üzərinizdə geyim minimum olsun.

**Hindular və ərəblər kimi edin**

Onların bir tryükü işə yarayır. Nazik dəsmal, yaylıq və ya pambıq parçanı suda isladın, yaxşıca sıxın və türban, çalma kimi başınıza sarıyıb, boynunuzda bağlayın. Dərhal necə sərinlədiyinizi görəcəksiz.

**Fironların sirri**

Bilirsizmi, isti, bürkülü Misir gecələrində kondinsioneri olmayan fironlar və saray əhli necə yatırdı? Mələfəni soyuq suda isladıb, bərk sıxıb, ona bürünüb yatardılar. Mələfə sulu yox, nəm olmalıdır. Bu üsul rahat yuxuya getməyə kömək edirdi. Əgər yaş mələfə istəmirsizsə, onda islaq corablar geyinin.

**İşıqları, texnikanı söndürün**

Yayda axşamlar az lampa yandırın, bütün texnikanı elektrikdən ayırın. Bunlar istilik verir. Küncdə zərif bra işığı yetərlidir. Hətta şam belə, lampa kimi istilik vermir.

**İsti şorba, çay və qəhvə olmaz**

Qaynar günlərdə qəhvə, şirin su, çay, isti yeməklərdən uzaq durun. Bədəni daxildən isitməyin sizə faydası olmayacaq.

Soyuducuda buz ehtiyatınız olsun. İçəcəyiniz suya buz atın. Hətta buz dolu qabı avtomobilə qoysaz, yolboyu maşın sərin olacaq.

# Rusiyada koronavirusdan ölənlərin sayı 11 mini keçdi

Rusiyada koronavirusa yoluxanların sayı 710 min nəfəri keçib. SİA-nın məlumatına görə, ölkədə son sutka ərzində 6 635 nəfər virusa yoluxub, 174 nəfər isə həyatını itirib. Bu günə qədər Rusiyada 713 936 nəfər infeksiyaya yoluxub, ölənlərin sayı 11 017 nəfərə çatıb. Ölkə ərazisində ümumilikdə 489 068 nəfər virusdan sağalıb, 213 851 nəfərin müalicəsi isə davam edir.



# Onun sərvəti 180 milyard dolları keçdi

Dünyanın ən varlı adamı Ceff Bezosun sərvəti “Amazon” şirkətinin səhmlərinin bahalaşması fonunda rekord səviyyəyə qalxaraq 180 milyard dollara çatıb. Bu barədə “Forbes” jurnalı məlumat yayıb. Nəşrin məlumatına görə, ötən gün günorta saatlarından sonra “Amazon”un kapitallaşması 1,52 trilyon dollara çatıb. Beləliklə, Bezosun sərvəti 181,5 milyard dolları keçib. Nyu-York birjasında ticarət əməliyyatları yekunlaşanda “Amazon”un bir səhminin qiyməti 3,081,11 dollar təşkil edib, gün ərzində 2,7 faiz artıb.

## ELAN

Bağçalı Evlər MTK tərəfindən Tahirova Sərfinaz Müseyib qızının adına verilmiş 81\47 saylı müqavilə itidyi üçün etibarsız sayılır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**